# Həzrət Əbdül-Bəha haqqında hekayələr

Qloriya Feyzi

Hindistan Bəhailəri Milli Ruhani Məhfilinin təqdim etdiyi əl yazılarından.

© Azərbaycan Bəhailəri Milli Ruhani Məhfili
**İSBN 978-9952-8382-3-7**

Bu kitabda Həzrət Əbdül-Baha haqqında xatirələr və hekayələr toplanmışdır. Həzrət Əbdül-Bəhanın bütün həyatı Allahın Əmrinə sədaqətlə xidmətin bir nümunəsi olmuşdur. O, nə vaxtsa buyurub: "Baxın, şam necə yanır. O damla-damla əriyərək həyatını verir ki, işıq saçsın". Başqalarının yolunu işıqlandırmaq naminə Özünü bütünlüklə həsr edən Həzrət Əbdül-Bəhanın həyatı bu sözlərin təcəssümüdür.

## *Müqəddimə*

XIX əsrin ortalarında, dini və irqi fanatizmin tüğyan etdiyi bir zamanda, Həzrət Bəhaullah – İrandan olan əsilzadə – Özünün birlik və məhəbbət haqqında Missiyasını elan etdi. O bütün ölkələrdən və dinlərdən olan insanları çağırdı ki, aralarındakı ixtilafları unutsunlar, bir-birlərini qardaş kimi qəbul etsinlər və güclərini insan nəslinin birləşməsi üçün birgə istiqamətə yönəltsinlər.

Həzrət Bəhaullah Bəhai Dininin Banisidir. Onun müqəddəs həyatı və gözəl Təlimi dünyanın müxtəlif guşələrindən olan insanları Ona cəzb edirdi, lakin İranın nüfuzlu din xadimləri Onun əleyhinə idilər. Onlar Həzrət Bəhaullahı Siyah-Çal adlanan dəhşətli bir zindana saldılar, sonra isə doğma vətənindən Onu sürgün etdilər. Onun minlərlə ardıcılları, bəhailəri edam etdilər və əllərindən gələn hər şeyi etdilər ki, Həzrət Bəhaullahın təlimlərinin yayılmasının qarşısını alsınlar. Bu gün, təqribən əsr yarım keçdikdən sonra, müxtəlif irqdən, millətdən və dindən olan insanlar Bəhai Dinini qəbul etmiş-

lər. Bütün dünya üzrə bu dinin 116707 mərkəzi yaradılmışdır.

Həzrət Bəhaullah 1892-ci ildə qala-məhbəs olan Əkkanın yaxınlığında dünyasını dəyişmişdir. Bu dünyanı tərk etməzdən əvvəl, Həzrət Bəhaullah bu dini parçalanmadan qorumaq üçün tədbir gördü və böyük oğlu Həzrət Əbdül-Bəhanı Əhdinin Mərkəzi təyin etdi ki, bütün bəhailər məsləhət üçün Ona müraciət etsinlər.

"*Bəhai Dini*" kitabından götürülmüş və Həzrət Əbdül-Bəhanın həyatından danışan kiçik bir parçada deyilir:

Əbdül-Bəha adının mənası "Bəhanın qulu" deməkdir. Onun özü üçün seçdiyi bu ad Onun həyatının mahiyyətini ifadə edir, o həyat ki, Bəhai dininin ardıcılları üçün bir nümunədir. Erkən yaşlarından, hələ uşaq ikən Atasını Tehran həbsxanasında görməyə icazə verilən vaxtdan əzab və qələbələrlə dolu uzun ömür yolunun sonuna, Kərmil dağının ətəyindəki Məqamda rahatlıq tapana qədər Əbdül-Bəha yalnız bir məqsədə can atırdı – Həzrət Bəhaullahın Əmrinə xidmət etmək.

Həzrət Bəhaullahı Siyah-Çal zindanına salanda Həzrət Əbdül-Bəhanın cəmisi səkkiz yaşı vardı. Onların bütün əmlakını müsadirə etdilər, hətta dostları belə onları görməyə gəlməkdən çəkinirdilər. Ev viran qalmışdı; bir az un qalmışdı ki, onunla da Həzrət Əbdül-Bəhanın anası yemək bişirirdi. O küçəyə çıxanda imansızın oğlu kimi Onu daşa basırdılar. Sonralar O Atasını sürgündə müşayiət etdi və könüllü olaraq Atasının taleyinə düşən məşəqqətləri Əkkada son həbsə qədər Onunla bölüşdü.

Əbdül-Bəha böyüyəndən sonra bəhailərin can atdıqları bütün məziyyət və keyfiyyətləri artıq Özündə təcəssüm etdirirdi. O mehriban və mülayim, səxavətli və cəsur idi. Həzrət Əbdül-Bəhanın şəxsiyyətində böyük müdriklik riqqətə gətirən təvazökarlıqla birləşirdi, Onun Allaha və insanlara məhəbbəti sonsuz idi. Həyatının hər gününü insanlara xidmətə həsr edirdi və ətrafındakı bütün insanlara sevinc gətirirdi. Yoxsul və acizlər Əbdül-Bəhanın xüsusi himayəsi altında idilər, yetimlər üçün isə O doğma bir ata idi. Dostları Onu heyrətli dərəcədə sevirdilər, Ona kin bəsləyənlər isə Həzrət Əbdül-Bəhanın kamil şəxsiyyətində və xasiyyətində

bir qüsur tapa bilmirdilər. O Allahın Elçisi deyildi, lakin Onun bütün həyatı insan kamilliyi üçün bir nümunə idi.

Həzrət Bəhaullah sağ olanda, Onun ən yaxın dostu Əbdül-Bəha idi. Atasının həyatını asanlaşdırmaq üçün O heç bir şeyi əsirgəmirdi. Yorucu gündəlik işləri O Öz üzərinə götürmüşdü ki, Həzrət Bəhaullah vaxtını daha mühüm işlərə həsr edə bilsin. Həzrət Bəhaullahın Bağdaddakı Evinə gələn çoxlu insanlar Həzrət Əbdül-Bəha ilə söhbət etdikdən sonra razı halda çıxıb gedirdilər, ona görə də, baxmayaraq ki, O hələ çox gənc idi, insanlar öz sualları ilə Həzrət Əbdül-Bəhaya müraciət edirdilər. Tədricən Həzrət Bəhaullah Özü də Onu ziyarətə gələn ardıcıllarını Həzrət Əbdül-Bəhanın yanına göndərirdi və məhəbbətlə Onu "Ağa" adlandırırdı.

Həzrət Bəhaullahın vəfatından sonra bəhailər başçıları və ustadları kimi Həzrət Əbdül-Bəhaya müraciət etdilər. Onun özünü unutmaq dərəcəsində Özünü Allahın Əmrinə həsr etməsi hamını ruhlandırırdı. Həzrət Əbdül-Bəhanın nəsihətləri onların üzərinə qoyulmuş vəzifələri dünyanın müxtəlif

yerlərində həyata keçirmələrində onlara kömək edirdi.

Həzrət Əbdül-Bəha Özü hələ də Əkkada məhbus idi. Həzrət Bəhaullah dünyasını dəyişdikdən sonra Əmrin düşmənləri şəhərdən kənara çıxmaq yasaq edilmiş Həzrət Əbdül-Bəhaya hücumlarını daha da gücləndirdilər. Lakin çoxsaylı yazışmaları ilə O, bütün dünya bəhailəri ilə əlaqə saxlayır, onların suallarına cavab verir, fəaliyyətlərini istiqamətləndirir, imanlarına görə təqib olunanda onları ruhlandırırdı.

Həzrət Əbdül-Bəha uzun illər ərzində təqiblərə məruz qaldı. Lakin buna baxmayaraq, O sakitliyini və nikbinliyini saxlayırdı. Həyat sevgisi, gülərüzlülük, sevinc və gözəl yumor hissi Onu heç zaman tərk etmirdi. O həmişə "Mənim evim sevinc və şadlıq evidir," deyirdi. İnsanlar maraqlananda ki, Onun belə həmişə şən və gülərüzlü olmasının səbəbi nədir, O deyirdi ki, insanın öz "nəfs"indən başqa məhbəs yoxdur.

Türkiyədə inqilab baş verəndə, gənc türklər Əkkanın bütün məhbuslarını azad etdilər və Həzrət Əbdül-Bəhanın da məhbusluğuna son qoyuldu.

Onun Müqəddəs Torpaqda olması düz qırx il çəkdi! O həbsxanaya yeniyetmə ikən düşdü, oradan qoca yaşında çıxdı. Onun səhhəti pozulsa da, ruhu sarsılmaz olaraq qaldı; və O başqa yerə getmək azadlığı alan kimi, qərb dünyasını Həzrət Bəhaullahın Əmri ilə tanış etmək qərarına gəldi.

Bəhai dini əvvəlcə yalnız Yaxın və Uzaq Şərqdə, Şimali Afrikada yayılmışdı, indi isə onun əsasları Avropa və Amerikada da qoyulmuşdu. Qərb ölkələrindən olan çoxlu bəhailər, hələ O Müqəddəs Torpaqda olarkən, Onu ziyarət etməyə gəlirdilər və təşviqdən ruhlanaraq Müjdəni Qərbdə yaymaq üçün qəti qərarla oranı tərk edirdilər.

Həzrət Əbdül-Bəhanın Avropa və Amerikaya çoxsaylı səfərləri – və bu zaman Onun yetmişə yaxın yaşı vardı – Bəhai dinini milyonlarla insanın tanımasına səbəb oldu. Onu kilsə və sinaqoqlara, məbəd və məscidlərə, universitet və xeyriyyə təşkilatlarına çıxış etmək üçün dəvət edirdilər. Minlərlə insanlar – yüksək dövlət məmurlarından, alimlərdən və filosoflardan başlayaraq sadə fəhlələr və miskin avaralara qədər insanlar Onu görməyə gəlirdilər. Səhər ertədən gecə keçənədək Həzrət Əbdül-Bəha

Öz hikməti və məhəbbəti ilə onlarla bölüşürdü. İnsanlar ruhlanmaqla, yeni ümidlərlə Ondan ayrılırdılar və həyatının çox hissəsini zindanda keçirməsinə baxmayaraq həyat haqqında son dərəcə geniş biliyə malik olan və insanı narahat edən şeyləri yüksək həssaslıqla duyan Həzrət Əbdül-Bəhaya heyran olurdular. Həzrət Əbdül-Bəhanı heç görməmiş milyonlarla insanlar Onun Özü və Missiyası haqqında çoxlu sayda qəzet məqalələrindən məlumat alırdılar.

Həzrət Əbdül-Bəhanın bütün həyatı, şəraitə baxmadan, harada – bu istər cinayətkarlar koloniyası olsun, istərsə də dünyanın ən müasir şəhəri - olmasından asılı olmayaraq yüksək ruhani ideallara necə yaxınlaşmasının nümunəsidir.

Həzrət Əbdül-Bəha Əmrə həyatının son gününə qədər sədaqətlə xidmət edərək 1921-ci ildə Müqəddəs Torpaqda həyatını dəyişdi. Nə vaxtsa O buyurub: "Baxın, şam necə yanır. O damla-damla əriyərək həyatını verir ki, işıq saçsın". Başqalarının yolunu işıqlandırmaq naminə Özünü bütünlüklə həsr edən Həzrət Əbdül-Bəhanın həyatı bu sözlərin təcəssümüdür.

## *Həzrət Əbdül-Bəha haqqında hekayələr*

Həzrət Əbdül-Bəha üçün əməl hər zaman sözdən qiymətli olub və bu da, Onun etdiyi işlərdə öz əksini tapırdı. O, bir həqiqi rəhbər kimi, heç vaxt davamçılarını özü etmədiyi işi yerinə yetirməyə çağırmırdı və həmişə onlara kömək edirdi.

Əkkada Həzrət Əbdül-Bəhanın həyatı insanlara xidmət etməklə keçirdi. O, səhər tezdən durar, çay içər və mahiyyəti məhəbbət olan işlərinə başlayardı. Çox zaman elə olurdu ki, bütün gün yeməksiz və istirahətsiz işləyər, evə gec gələrdi. Adətən, O, ilk növbədə öz evi ilə üzbəüz kirayə tutduğu evə gedərdi. Bu evdə O, hər gün öz qonaqlarını, eləcə də kömək üçün gələn dəstə-dəstə adamları qəbul edərdi.

Məsələn, dükan açmaq istəyən bir kəs, Onun yanına məsləhət almağa gəlirdi. Başqa bir adam dövlət işlərindən birində işləməsi üçün Onun yanına zəmanət məktubu almağa gəlirdi.

Həyat yoldaşı əsgərlikdə olan bir imkansız qadın, uşaqlarla təkbaşına və çörəksiz qaldıqları üçün Ona müraciət edirdi. Yaxud kimisə Həzrət Əbdül-Bəhanın yanına gəlib, hər hansı bir ailədə uşaqlarla necə pis rəftar edilməsindən, qadınların əri və ya qardaşı tərəfindən döyülməsindən danışırdı.

Həzrət Əbdül-Bəha təcrübəli vəkillər göndərirdi ki, imkansız adamları məhkəmədə hakimin qarşısında müdafiə etsinlər. Bu yolla O, yəqin edirdi ki, onlarla ədalətlə davranılır.

Onun yanına başqa qonaqlar – çox möhtərəm şəxslər də gəlirdi: Qubernator, din xadimləri, məhkəmə məmurları və s. Həzrət Əbdül-Bəhanın hüzuruna Onu eşitmək üçün ya tək-tək, ya da bir yerdə gəlirdilər. O, qonaqları ətirli qəhvəyə qonaq edər və son xəbərləri birlikdə müzakirə edərdilər. Onlar həmişə Həzrət Əbdül-Bəhadan məsləhət istəyər, hər hansı bir məsələni izah etməyi və ya təkliflər xahiş edərdilər, çünki onlar görürdülər ki, O, müdrikdir, insanlara sonsuz məhəbbət və anlayışla doludur və onlara həmişə kömək edirdi. Hər məhkəmə iclasından sonra hakim Həzrət Əbdül-Bəhanın görüşünə gəlirdi. O, ən çətin məsələləri Həzrət Əbdül-Bəhaya

danışırdı, çünki bilirdi ki, Həzrət Əbdül-Bəha hər zaman ədalətlə mühakimə yürüdür.

Həzrət Əbdül-Bəhanın yanına kömək üçün gələnlərin sayı çox olduğundan, elə olurdu ki, bəzi günlər O, heç öz ailəsini görmürdü. Xəstələr Ondan xüsusi qayğı və diqqət görürdülər. Onlar Həzrət Əbdül-Bəhanı görməyi arzulayan zaman, O, onlara baş çəkməyə gedərdi. Hər gün hər bir xəstənin yanına bir nəfəri göndərərdi ki, onlardan necə yatdıqlarını, əhvallarını, nəyəsə ehtiyacları olub-olmadığını soruşsun. Onların dərman və başqa bir şeyə ehtiyacları olan zaman, O, lazım olan hər şeyi onlara göndərirdi. O, Öz istirahətindən və yeməyindən başqa heç vaxt heç kimə və heç nəyə laqeyd münasibət göstərmirdi.

Bəzən insanlar Həzrət Əbdül-Bəhanın köməyi müqabilində təşəkkür etmək üçün Ona şirniyyat və meyvə göndərərdilər, amma O, bütün göndərilmiş meyvələri, şirniyyatları evi ilə üzbəüz yerləşən görüş zalında hüzuruna gələn qonaqlara göndərərdi. Ərəblər Onu "Səxavətliliyin Ağası" adlandırırdılar.

***

Həzrət Əbdül-Bəha həm tibbi, həm də ruhani müalicənin təsirinə inanırdı. Əkkada xəstəxana olmadığı üçün, O, Nikolaki bəy adlı bir həkim tutmuşdu. Həzrət Əbdül-Bəha müntəzəm olaraq həkimin haqqını ödəyirdi ki, o, kasıblara xidmət etsin və ondan xahiş etmişdi ki, heç kəsə müalicənin haqqını kimin ödədiyini söyləməsin. Ancaq kasıblar yenə də elə bilirdilər ki, həmişə kömək üçün Həzrət Əbdül-Bəhaya üz tutmalıdırlar.

Məsələn, Naum adlı imkansız şikəst bir qadın hər həftə Həzrət Əbdül-Bəhanın yanına sədəqə almaq üçün gəlirdi. Bir gün bir nəfər şəxs qaça-qaça Həzrət Əbdül-Bəhanın yanına yaxınlaşıb dedi: "Ya Əbdül-Bəha, yazıq Naum qızılca xəstəliyinə tutulub, heç kim onun yaxınlığına getmir, nə edək?" Həzrət Əbdül-Bəha dərhal onun yanına xidmətçi qadın göndərdi. Onun üçün kirayə ev tutdu, Özünün şəxsi yataq dəstini verdi, həkim çağırdı, ona ərzaq və lazım olan bütün şeyləri göndərdi. Sonra Özü onun yanına getdi ki, diqqətdən kənarda qalıb-qalmadığını öyrənsin. Naum vəfat edəndə isə Həzrət Əbdül-Bəha onun dəfnini təşkil etdi və dəfnin bütün xərclərini ödədi.

Amerikanın ilk bəhailərindən biri Lua Getsinger Əkkada onunla nə baş verdiyini belə nəql edir. O, Həzrət Əbdül-Bəha ilə görüşmək üçün şəhərzindana ziyarətə getmişdi. Bir gün Həzrət Əbdül-Bəha Luaya dedi ki, çox mühüm işləri olduğundan bir xəstə və yoxsul dostuna baş çəkə bilmir. Luadan xahiş etdi ki, Onun əvəzinə gedib həmin xəstəyə baş çəksin...

"Onun üçün yemək götür" – Əbdül-Bəha dedi – "və ona mənim kimi qayğı göstər". O, Luaya bu adamın harada yaşadığını söylədi. Lua isə Həzrət Əbdül-Bəhanın Öz işinin bir hissəsini ona etibar etdiyinə görə fəxr və sevinc hissi ilə oraya yollandı.

Lakin çox keçmədi ki, Lua qayıtdı. "Ey Əbdül-Bəha" – o, həyəcanla dedi: "Siz yəqin təsəvvür edə bilməzsiniz ki, məni necə dəhşətli bir yerə göndərmisiniz. Bu adamın evinin üfunətindən və çirkindən, özünün görkəmindən az qala huşumu itirmişdim. Hansısa bir yoluxucu xəstəliyə tutulmamaq üçün mən oradan qaçdım".

Həzrət Əbdül-Bəha ona kədərli və bir ata ciddiyyəti ilə nəzər saldı və dedi: "Əgər Allaha xidmət

etmək istəyirsənsə, sən gərək insanlara xidmət edəsən, çünki sən onda Allahın surətini və bənzərini görə bilərsən". Sonra Həzrət Əbdül-Bəha Luaya bu adamın evinə qayıtmağı tapşırdı. O dedi: "Əgər ev çirklidirsə, sən onu təmizləməlisən. Əgər sənin qardaşının üstü çirkdirsə, onu yumalısan, əgər o acdırsa, onu yedizdirməlisən. Bunları etməmiş geri qayıtma. Əbdül-Bəha onun üçün bu işləri dəfələrlə edib. Məgər sən bunu bircə dəfə edə bilməzsənmi?" Həzrət Əbdül-Bəha insanlara xidmət etməyi Luaya belə öyrətdi.

***

Çox zaman Həzrət Əbdül-Bəha ailəsi ilə birlikdə şam yeməyi zamanı Ona kasıb bir kimsənin evdə yeməyə bir şeyi olmaması barədə xəbər çatırdı. Ailə heç bir söz demədən, dərhal öz yeməklərini yığışdırıb, zənbilə qoyar və çətinliyə düşmüş ailəyə göndərirdilər. Belə hallarda Həzrət Əbdül-Bəha təbəssümlə deyərdi: "Bizə heç nə olmaz, bizim dünən də şam yeməyimiz olub, sabah yenə də olacaq".

***

Əkkada həbsdə olarkən Həzrət Əbdül-Bəha gecələməyə yeri olmayanlara çox zaman öz yatağını verirdi. O, heç vaxt bir dəstdən artıq əbasının olmasına razı olmurdu. Nə üçün başqalarının bir libası belə olmadığı halda, mənim iki libasım olmalıdır?

Bir dəfə Əkka Qubernatoru Həzrət Əbdül-Bəhanın yanına gəlməli idi. Həzrət Əbdül-Bəhanın həyat yoldaşı, onun köhnə libasının bu mühüm görüş üçün yaramadığından narahat oldu. O, çox istəyirdi ki, Həzrət Əbdül-Bəha belə mühüm görüşdə daha yaxşı görünsün. Həzrət Əbdül-Bəha isə yalnız geyindiyi libasın təmizliyi və səliqəliliyinə fikir verərdi. Həzrət Əbdül-Bəhanın həyat yoldaşı nə edəcəyini düşünməyə başladı.

Nəhayət, o, Onun üçün bir dəst təzə libas (əba) sifariş emək və görüş ərəfəsində təzə libası köhnənin yerinə qoymaq qərarına gəldi. "O, əlbəttə, bu dəyişikliyi hiss etməyəcək" – deyə fikirləşdi. Dərzinin tikdiyi libas həm yaraşıqlı, həm də kifayət qədər bahalı idi. Görüş keçirilən gün Onun həyat yoldaşı həmin libası köhnənin yerinə qoydu.

Ancaq Həzrət Əbdül-Bəha libasını geyinmək istəyəndə, baş vermiş dəyişikliyi dərhal hiss etdi. O,

bütün evi axtarmağa başladı və öz-özünə söyləyirdi: "Mənim libasım haradadır? Mənim libasım haradadır? Buraya qoyulan libas mənim deyil".

Həzrət Əbdül-Bəhanın həyat yoldaşı əslində nə baş verdiyini izah etməyə çalışanda, həmişə Özündən çox başqalarının qayğısına qalan Həzrət Əbdül-Bəha dedi: "Sən bir fikirləş, bu libası aldığın pula mən adətən geyindiyim libasdan düz beş dəst ala bilərdim. Nə üçün sən düşünürsən ki, mən bu qədər pulu özümə bir dəst libas almağa xərcləyərəm? Yaxşı, əgər sən hesab edirsən ki, mənə təzə paltar lazımdır, mən etiraz etmirəm, ancaq bu paltarı geri qaytarıb, həmin qiymətə beş dəst yeni – mənim adətən geyindiyim libasdan sifariş et. O zaman görəcəksən ki, mənim həm təzə libasım, həm də başqalarına paylamaq üçün dörd dəst artıq paltarım olacaq".

***

Əkkanın Qubernatorlarından bəziləri, Həzrət Əbdül-Bəhaya yaxşı münasibət bəsləyirdilər. Lakin onların arasında elələri də var idi ki, Onun düşmənlərinin sözlərinə qulaq asıb, Onunla ədalətsiz

rəftar edirdilər. Bir gün belə bir hadisə baş verdi. Həzrət Əbdül-Bəhanın düşmənləri xəbər yaydılar ki, O, Əkkanı tərk edərək Hayfaya gedib və Kərmil dağında bir çox dostlarının köməyi ilə alınmaz qala tikdirir və tezliklə O, Fələstini və Suriyanı zəbt edib, Türk hakimiyyətini devirəcək.

Həqiqətən də Həzrət Əbdül-Bəha ailəsi ilə birlikdə təmiz dağ havası olan Hayfaya köçdü, doğrudan da burada Onun müxtəlif millətdən dostları var idi, lakin Onun tikdirdiyi qala Həzrət Babın Müqəddəs Məqamından başqa bir şey deyildi. Ancaq qubernator düşmənlərin sözlərinə inanıb, Həzrət Əbdül-Bəhanın ailəsini yenidən Əkkaya, qalazindana qaytardı.

Ancaq bütün bəhailərə nifrət edən qubernator, bəhailərin yeganə qazanc yeri olan dükanlarını əllərindən almaq qərarına gəldi. O, polislərə əmr etdi: "Bəhailərin 15 dükanı var; sabah səhər tezdən bəhailərin bütün dükanlarını bağlayıb, açarlarını mənə gətirin".

Həmin axşam Həzrət Əbdül-Bəha dükanların sahibləri olan bəhailəri evinə dəvət edib dedi: "Sa-

bah dükanları açmayın, səbr edin, görək Allah bizə sabah nə göndərəcək".

Növbəti səhər Qubernator oturub açarların ona gətirilməsini gözləyirdi. Polislər gəlib xəbər verdilər ki, dükanlar bağlıdır. Qubernator onları yenidən göndərdi: "Gedin bir daha yoxlayın, dükanlar açılmayıb ki?" Polislər qayıdıb, dükanların hələ də bağlı olduğunu söylədilər. Baxmayaraq ki, dükanlar, adətən saat 7-dən açılırdı, onlar çox gözləməli oldular. Amma bu dəfə saat 10 olsa da, dükanlar hələ də bağlı idi. Qubernator dükanların gec-tez açılacağına ümid edərək, gözləməkdə davam edirdi.

Bu vaxt şəhərin baş müftisi Qubernatorun yanına gəldi. "İşlər necədir?" – deyə Qubernator soruşdu. "Pis deyil" – o cavab verdi. "Ancaq mən Dəməşq şəhərindən məni çox kədərləndirən bir teleqram almışam".

Qubernator teleqramı oxumağa başlayanda, rəngi avazıdı. Məktubda deyilirdi ki, hökumət onun vəzifədən uzaqlaşdırılmasını əmr edir və tezliklə polisin müşayiəti ilə Dəməşqə gətirilməsini tapşırır.

Həzrət Əbdül-Bəha Qubernatorun başına gələni eşidəndə, onun yanına gəldi. "Siz kədərlənməməli-

siniz" – Həzrət Əbdül-Bəha dedi – "Bu dünyada hər şey dəyişir. Mən sizə necə kömək edə bilərəm?"

Həzrət Əbdül-Bəhanın bu təklifindən Qubernator bərk təəccübləndi və mütəəssir oldu. "Məni öz doğmalarımın yanından ayırırlar və onların qayğısına qalıb, kömək etməyə bir kəs yoxdur".

Onun bu sözünə Həzrət Əbdül-Bəha cavab verdi: "Mən sizə kömək edərəm, siz ailənizi hara göndərmək istərdiniz?"

"Əgər onlar mənim dalımca Dəməşqə gələ bilsəydilər!" – Qubernator çox həyəcanla dedi.

"Mənə etibar edin," – Həzrət Əbdül-Bəha cavab verdi – "ürəyinizi sakitləşdirin. Sizin uşaqlarınızı və həyat yoldaşınızı Dəməşqə müşayiət edəcəklər. Onlar sizin arxanızca oraya gələcəklər".

Belə də oldu. Qubernatorun ailəsi Dəməşqə gələndə o, hədsiz dərəcədə xoşbəxt idi. O, ailəsini Dəməşqə gətirən adamdan ona nə qədər pul verəcəyini soruşdu. "Siz mənə heç bir şey ödəməməlisiniz" – deyə o cavab verdi. "Mən ancaq Ağanın, Həzrət Əbdül-Bəhanın əmrini yerinə yetirmişəm".

Qubernator ona hədiyyə vermək istəyəndə isə o, belə cavab verdi: "Mənə heç bir mükafat lazım

deyil, mən öz Ağamın əmrini yerinə yetirmişəm və buna görə də heç nə götürmərəm".

Bu zaman Qubernator onu öz evində qonaq etmək istədi. Amma o razılaşmadı: "Ağam tapşırıb ki, dərhal qayıdım".

"O zaman heç olmasa mənim bu məktubumu Həzrət Əbdül-Bəhaya çatdırın". – Qubernator xahiş etdi və Həzrət Əbdül-Bəhaya belə bir məktub göndərdi:

"Ey Həzrət Əbdül-Bəha, Sizə yalvarıram, məni bağışlayın. Mən sizi başa düşməmişəm, Sizi tanımamışam, mən Sizə böyük pislik etmişəm, Siz isə əvəzində mənə böyük yaxşılıq etdiniz".

***

Birinci Dünya Müharibəsinə xeyli qalmış Həzrət Əbdül-Bəha bəhailəri xəbərdar etdi ki, çətin dövr üçün tədarük görsünlər. O, yaxşı məhsul almaq üçün taxıl əkməyi onlara öyrətdi. Sonra Həzrət Əbdül-Bəha taxılın yeraltı anbarda necə saxlanması haqda onlara məsləhət verdi.

Müharibə vaxtı Fələstinin başqa ölkələrlə əlaqəsi kəsildiyindən, adamlar ərzaq tapmaqda çətinlik

çəkirdilər. Fələstində aclıq başlandı, çoxları acından öldü. Amma Hayfa və Əkkanın yaxınlığında yaşayanları Həzrət Əbdül-Bəha xilas etdi. Çünki onun və başqa bəhailərin taxılları ac insanları yedirtmək üçün kifayət edirdi.

Yaxınlıqda yaşayan müxtəlif millətlərdən olan adamlar öz taxıl payını almaq üçün Həzrət Əbdül-Bəhanın yanına gəlirdilər, O da taxılı orduda əsgərlərə pay bölünən kimi, bölüb paylayırdı. Beləliklə, 1914-1918-ci illərdə ölkədə minlərlə insan ölümdən xilas oldu.

***

İngilislər Həzrət Əbdül-Bəhanın insanların rifahı naminə fədakarlıqla xidmət etməsini yüksək qiymətləndirirdilər. 1920-ci il aprelin 27-də Hayfada Britaniya hökuməti Onu Cəngavər elan etdi. Baxmayaraq ki, Həzrət Əbdül-Bəha heç zaman şöhrət axtarmırdı, lakin bu dövlətə öz hörmətini bildirmək üçün razılaşmalı oldu. Ancaq bu əlamətdar gündə də O özünü deyil, xidmətçisini fikirləşirdi. Belə bir hadisə baş vermişdi:

Hökumət məmurları, Yerusəlimdəki Britaniya Sarayının nümayəndələri Allaha təmənnasız xid-

məti üçün hamının sevdiyi və hörmət etdiyi Həzrət Əbdül-Bəhanın şərəfinə Hayfaya yığışmışdılar. Həzrət Əbdül-Bəhanı mərasim keçirilən yerə gətirmək üçün böyük bir maşın göndərdilər. Ancaq maşın gələndə Həzrət Əbdül-Bəhanı heç bir yerdə tapa bilmədilər. Onu axtarmağa adamlar göndərdilər. Nəhayət Onun, tək, müşayiət olunmadan, gözlədiklərindən tamamilə başqa bir tərəfdən gəldiyini gördülər; O, təvazökarlıqla və eyni zamanda da əzəmətlə yaxınlaşırdı.

Həzrət Əbdül-Bəhanın vəfalı xidmətçisi və artıq neçə illərdir ki, öz Ağasını faytonda gəzdirən faytonçusu İsfəndiyar yaxınlıqda dayanmışdı. Həzrət Əbdül-Bəha üçün göndərilən gözəl maşını görəndə İsfəndiyar bərk kədərləndi. O fikirləşdi: "Mən daha lazım deyiləm".

Ancaq Həzrət Əbdül-Bəhanın gözündən heç nə yayına bilməzdi. Öz sevimli xidmətçisini qəmli görən Həzrət Əbdül-Bəha işarə etdi ki, atları arabaya qoşsun və İsfəndiyar bir göz qırpımında Onun əmrini yerinə yetirdi. Tezliklə fayton göründü və faytonçu yerində İsfəndiyar oturmuşdu. O, əvvəlki kimi lazımlı olduğu üçün xoşbəxt idi.

Onlar Qubernatorun bağına yaxınlaşanda Həzrət Əbdül-Bəha İsfəndiyara dedi ki, Onu yan qapıya aparsın, çünki diqqət mərkəzində olmaq istəmirdi. Həzrət Əbdül-Bəha həmin gün Ona verilən "Ser Abbas Əfəndi" titulundan heç vaxt istifadə etməmişdi. Onu həmişə ya Ağa, ya da sadəcə olaraq Əbdül-Bəha kimi tanıyırdılar.

***

Həzrət Əbdül-Bəhanın hüzurunda insanlar özlərini həmişə xoşbəxt hiss edir və bu, onların yaxşı insan olmasına kömək edirdi. Əkkaya ziyarətə gedən bir qadın hesab edirdi ki, o daha heç vaxt başqa bir insana məhəbbətdən başqa bir hiss bəsləməz. Amma Müqəddəs Torpaqda olduğu zaman bir dəfə günorta vaxtı, iki tanışı ilə otaqda söhbət edərkən o, rəfiqəsi haqqında xoşagəlməz söz işlətmişdi.

Həmin vaxt xəstələrə və kasıblara baş çəkən Həzrət Əbdül-Bəha evə qayıdırdı. O dərhal xoşagəlməz sözləri eşitmiş iki qadından birini yanına çağırdı və dedi: "Mən burada olmayanda, kimsə başqası haqqında xoşagəlməz söz işlədib" və əlavə etdi: "Bəhailərin bir-birini sevməmələri, kiminsə

əleyhinə danışmaları Onu kədərləndirir. O, qadından xahiş etdi ki, dua oxusun və bu söhbət barədə heç kimə heç nə deməsin.

Bir qədər keçəndən sonra hamı şam süfrəsinin arxasına yığışdı. Rəfiqəsinin arxasınca danışan qadının gözləri Həzrət Əbdül-Bəhanın mülayimlik və xeyirxahlıqla dolu gözlərinə sataşana qədər pis iş tutduğunu başa düşmürdü. Həzrət Əbdül-Bəhanın gözləri ona hər şeyi dedi və o hönkürtü ilə ağlamağa başladı. Bir müddət Həzrət Əbdül-Bəha ona fikir vermədi. Şam yeməyi davam edirdi. Qadın isə pis iş tutduğunu anlayıb ağlayırdı.

Nəhayət Həzrət Əbdül-Bəha ona tərəf dönüb gülümsədi və sanki çağırırmış kimi, bir neçə dəfə onun adını çəkdi. Elə həmin anda qadının ürəyi sevinclə doldu. O hiss etdi ki, Həzrət Əbdül-Bəha onu bağışlayacaq və insanlara məhəbbətlə yanaşmaqda ona kömək edəcək.

***

Bəzən elə görünürdü ki, Əbdül-Bəha insanlardan soruşmadan, onların qəlbindən keçən istəklərini bilirdi.

Bir dəfə Əbdül-Bəhanın evində şam yeməyi zamanı Onun yanında bir qadın oturmuşdu və diqqətlə Əbdül-Bəhanın müdrik nitqinə qulaq asırdı. Qadının qarşısında su ilə dolu bir stəkan var idi. O, bu stəkana baxır və fikirləşirdi: "Ah, kaş ki, Həzrət Əbdül-Bəha mənim ürəyimi götürüb stəkandan su tökülən kimi, sıxıb oradakı maddi bağlılıqları çıxaraydı və sonra onu İlahi məhəbbətlə və anlayışla dolduraydı".

Bu fikir qadının ağlına gələn kimi, Həzrət Əbdül-Bəha onu sanki oxudu. O bir dəqiqəliyə söhbəti dayandırdı, heç kəs hiss etmədən xidmətçisinə farsca nəsə dedi və sonra söhbətini davam etdirdi.

Xidmətçi hiss olunmadan qadına yaxınlaşdı, onun stəkanını götürüb boşaltdı və yenidən onun qarşısına qoydu.

Həzrət Əbdül-Bəha söhbəti dayandırmadan, sərbəst şəkildə əlini uzadaraq stolun üstündəki su ilə dolu qabı götürüb qadının boş stəkanına doldurdu. Heç kim Onun nə etdiyinə fikir vermədi – heç

kim, təkcə qadından başqa. Bunun nə demək olduğunu o başa düşdü və onun qəlbi sevinclə doldu. O, indi bildi ki, buradakı hər kəsin ən gizli fikirləri və arzuları Əbdül-Bəha üçün açıq bir kitabdır və Onun məhəbbəti hamıya paylanır.

***

Həzrət Bab və Həzrət Bəhaullah kimi Həzrət Əbdül-Bəha da möcüzələr etmək qabiliyyətinə malik idi. Məsələn, xəstələrə şəfa vermək. Baxmayaraq ki, bəhailər öz dinlərini təbliğ edərkən, adətən, möcüzələr haqqında danışmırlar, lakin burada bir hadisə misal gətirilir.

Bu hadisə 1916-ilin əvvəllərində baş vermişdi. Bir dəfə Həzrət Əbdül-Bəha və onun vəfalı faytonçusu Əkkadan Nazaretə gedirdilər. Həzrət Əbdül-Bəha yorulmuşdu və onlar balaca bir kəndin kəndxudasının evində dincəlməli oldular. Orada Həzrət Əbdül-Bəha sadə bir şam yeməyindən sonra bir saata yaxın dincəldi. Sonra O, onu görmək üçün yığılan kəndin hörmətli adamları və kəndxuda ilə söhbət etmək üçün çıxdı. Adamlar kəndin həyatı

haqqında danışdılar, Həzrət Əbdül-Bəha isə onlara bir neçə müdrik məsləhət verdi.

Söhbətdən sonra kəndxuda Həzrət Əbdül-Bəhaya öz gəlişi ilə böyük şərəf gətirdiyinə və məsləhətlər verdiyinə görə təşəkkür etdi. "Sizin gəlişiniz bizim kəndin adamlarına İlahi səxavət və kömək gətirdi. Ancaq mənim sizdən bir xahişim də var".

"Nə xahişiniz var?" – Həzrət Əbdül-Bəha soruşdu. "Əgər gücüm çatarsa, mən bu xahişi yerinə yetirməyə çox şad olardım".

Kəndxuda cavab verdi: "Mənim yeganə uşağım - 14 yaşında bir qızım var, artıq iki ildir ki, o, vərəm xəstəliyinə tutulub. Həkimlər deyirlər ki, mənim qızım heç vaxt sağalmayacaq. Hər gün anası, mən və bütün qohumlarımızın göz yaşı axıtmaqdan başqa əlimizdən bir şey gəlmir. Allah bizə başqa uşaq verməyib. Mən hiss edirəm ki, Siz mənim qızımın sağalması üçün dua oxusanız, Allah ona ikinci həyat bəxş edər. Biz inanırıq ki, Allah sizin dualarınızı eşidir və bilirik ki, layiq olub olmadığından asılı olmayaraq, Həzrət Əbdül-Bəhanın mərhəməti hamının üzərinə yağır". Kəndxuda bunu deyib hönkürtü ilə ağladı.

Həzrət Əbdül-Bəha cəld yerindən qalxdı. "Qızınız hardadır?" – O soruşdu. "Qonşu otaqdadır". – kəndxuda cavab verdi.

Həzrət Əbdül-Bəha döşəmənin üstündə yorğan-döşəkdə uzanmış qızı gördü. Anası və ailənin başqa üzvləri onun yanında oturmuşdular. Bəziləri qıza xidmət edir, qalanları isə ancaq ağlayırdılar.

Həzrət Əbdül-Bəha baş tərəfdən ona yaxınlaşdı və onun yatağının yanında əyləşdi. O, qızın balaca əllərini əlinə alıb, nəbzini yoxladı. Qızın hərarəti çox yüksək idi və qanlı öskürəyi ara vermirdi. Tamam gücdən düşmüş uşaqdan bir dəri, bir sümük qalmışdı. Həzrət Əbdül-Bəha Öz şəfalı əlini qızın alnına qoyub, saçını sığalladı. Sonra bir fincan çay gətirilməsini xahiş etdi. Həzrət Əbdül-Bəha çaydan bir qədər içib, dua etməyə başladı. O, beş dəqiqəyə qədər dua oxudu. Sonra qalan çayı az-az qaşıqla qıza içirtdi. O, iki dəfə əlini onun alnına toxundurdu. Sonra Əbdül-Bəha yenə dua oxumağa başladı. Bu dəfə O, on dəqiqəyə qədər dua oxudu.

Sonra ayağa qalxdı və valideynləri ürəkdən inandırdı: "Heç şübhəniz olmasın, Allah sizin qızınızı tam sağaldacaq. Qəm yeməyin, ağlayıb ahu-zar

etməyin. Ona böyük inamla qulluq edin. Tezliklə qızınız sağalıb ayağa duracaq".

Sonra O, bir neçə dəqiqəliyə qonaq otağına qayıtdı, kəndxuda və qonaqlarla vidalaşıb, evdən çıxdı və öz faytonuna oturdu.

Elə həmin gecə qız xeyli tərlədi və hərarəti tədricən düşməyə başladı. Kəndxudanın dediyinə görə iki aydan sonra onun qızı tamam sağalmışdı. 1922-ci ildə isə O, Əkkada hökumət məmurlarından birinə ərə getdi və üç sağlam uşağın anası oldu.

Qızın atası tez-tez Əkkada, Hayfada və Nazaretdə bu hadisəni danışar və hər dəfə də öz söhbətini bu sözlərlə tamamlayardı: "Zati-Müqəddəs Əbdül-Bəha qızımı mənə qaytardı".

***

Həzrət Əbdül-Bəha ölümdən sonrakı həyat haqqında çoxlu təsəlliedici sözlər bilirdi. Əkkadan olan bir qadın Həzrət Əbdül-Bəha və özünün kiçik qızı haqqında hadisəni belə nəql edirdi.

Həzrət Əbdül-Bəha onun xəstə qızını görməyə gəlmişdi. O, özü ilə iki ağ qızıl gül gətirmişdi və onları

uşağa verdi. Sonra səmimi bir səslə O, anaya müraciət etdi: "Sən səbirli olmalısan".

Elə həmin gecə uşaq vəfat etdi. Ananın "nə üçün" sualına Həzrət Əbdül-Bəha belə cavab verdi:

"Bütün insanlar Allahın bağında bitən ağaclardır. Bizim ilahi Atamız isə Bağbandır. Bağban görəndə ki, bu ağacın böyüməsi üçün yer çox dardır, O, daha uyğun, daha gözəl yer hazırlayır ki, ağac böyüyə bilsin və çoxlu bar versin. Sonra Bağban həmin ağacı başqa yerə əkir. Başqa ağaclar təəccüblənir və deyirlər: "Bu gözəl ağac idi, nə üçün bağban onu yerindən çıxardı?" Onun səbəbini təkcə İlahi Bağban bilir".

"Sən indi ağlayırsan, ancaq görə bilsəydin ki, sənin övladın necə valehedici yerdədir, sən bir daha kədərlənməzdin. Sənin qızın indi quş kimi azaddır və şən ilahi nəğmələr oxuyur".

"Əgər sən müqəddəs Bağı görə bilsəydin, özün də yer üzündə qalmaq istəməzdin. Hələ isə, sənin borcun bundan ibarətdir".

***

Bir dəfə bir çox bəlalara düçar olmuş bir qadın Həzrət Əbdül-Bəhanın yanına gəlir. O, qadını sakitləşdirməyə çalışır: "Kədərlənməyin, əzizim, kədərlənməyin".

Qadın danışmağa başlayır: "Üç ildir ki, qardaşım həbsxanadadır. O günahkar deyil, o həbs olunmamalı idi. O iradəsizdir, başqalarının sözünə inanır. Onun hələ dörd ili qalıb. Anamla atam gecə-gündüz onun dərdini çəkirlər. Əvvəllər bizə kürəkənimiz kömək edirdi, o da bu yaxınlarda vəfat etdi".

Həzrət Əbdül-Bəha bu hadisədə insan faciəsini gördü. Ağıla gələn hər cür bəlalar bu ailənin üzvlərinin başına gəlib – onlar kasıb və zəifdirlər, üstəlik alçaldılmışlar; bütün ümidlərini itirib, məyus və ümidsiz bir hala düşmüşlər.

Həzrət Əbdül-Bəha dedi: "Siz Allaha təvəkkül etməlisiniz".

Ancaq qadın ucadan dedi: "Biz Allaha nə qədər çox təvəkkül ediriksə, o qədər də pis olur".

"Siz heç vaxt Ona təvəkkül etməmisiniz" – Həzrət Əbdül-Bəha dedi.

"Axı mənim anam bütün günü Bibliya oxuyur," – qadın cavab verdi. "Anam Allahın ona kömək et-

məmisinə layiq deyil. Mən özüm də Bibliya oxuyuram. Mən hər axşam yatmazdan əvvəl doxsan birinci və iyirmi üçüncü məzmurları oxuyuram. Mən hələ dua da edirəm".

Həzrət Əbdül-Bəha ona məhəbbətlə baxıb dedi: "Dua eləmək – Bibliyanı oxumaq demək deyil. Dua eləmək – Allaha inanmaq və onun iradəsini qəbul etməkdir. Sən səbirli olmalı və Allahın iradəsinə itaət etməlisən, o zaman sənin həyatın dəyişəcək. Sən öz ailəni Allahın ixtiyarına ver, Allaha etibar et və Onun iradəsini sev. Möhkəm gəmilər tufanlara sinə gərirlər, onlar dalğaların üzü ilə üzürlər. Sən möhkəm gəmi ol, sınmış, dağılmış gəmi olma".

***

Bir gün yol qəzasına düşmüş və nəticədə uzun müddət yataqda qalan qonşusuna baş çəkməyə gələn Həzrət Əbdül-Bəha, insanlara nə üçün əzab verilməsi haqqında ona bir hadisə danışır.

Bir hökmdar var idi. O, öz təbəələrindən birinə yüksək vəzifə vermək istəyirdi. Amma bu vəzifəni vermək əvəzinə, onu həbsxanaya saldırdı. Həmin adam çaşıb qaldı, çünki lütf gözləyirdi. Sonra hökmdar əmr etdi ki, onu çubuqla döysünlər. Bu

adam yenə heç nə başa düşmədi. Axı o elə bilirdi ki, hökmdar onu çox sevir. Sonra bu adamı boğazından asdılar və o, az qala ölmüşdü. Bu adam özünə gələndə, hökmdardan soruşdu: "Əgər sən məni sevirdinsə, bütün bunları niyə mənim başıma gətirdin?" Hökmdar ona belə cavab verir: "Mən səni özümə baş vəzir götürmək istəyirəm. Bu əzablardan sonra sən bu vəzifəyə daha çox yarayırsan. Mən istədim ki, sən özün bu əzablardan keçəsən. İndi sən kimi isə bu cür cəzalandırmalı olsan, bilərsən ki, bu nə deməkdir. Mən səni sevirəm, ona görə də istəyirəm ki, sən bu işdə mükəmməl olasan".

***

Bir dəfə Qərbdən Əkkaya, Həzrət Əbdül-Bəhanın yanına bir qadın gəldi və başına gələn müsibətlər haqqında danışdı.

Həzrət Əbdül-Bəha diqqətlə ona qulaq asır, o isə durmadan danışırdı. Qadının başına gələn bəlalar o qədər də böyük deyildi, amma ona elə gəlirdi ki, bu dəhşətdir. Nəhayət Həzrət Əbdül-Bəha ayağa qalxdı və dedi ki, Onun başqa bir görüşü də var və O getməlidir. O, pəncərəyə işarə edib, dedi "Bax, bir adam gəlir ki, mən səni onunla tanış etmək is-

tərdim. Onun adı Mirzə Heydər Əlidir. Biz Ona Kərmil dağının mələyi adını vermişik. O, yer üzündə gəzir, amma göylərdə yaşayır. Mirzə Heydər Əli öz həyatında çox müsibətlər görüb və bu müsibətlər haqqında sənə danışar".

Həzrət Əbdül-Bəha bağa çıxdı və Mirzə Heydər Əli ilə qayıtdı. Onu qonağa təqdim etdi, Özü isə başqa görüşə getdi.

Mirzə Heydər Əli qadınla danışmağa başladı. İndi necə gözəl bir vaxtda yaşadıqlarını və tezliklə İlahi dövrün gəlməsi haqqında böyük təvazökarlıq və incəliklə söz açdı.

O, öz dininə görə sürgünlərə, sınaqlara və uzun illər zindan həyatına məruz qalmışdı. Qadın ona getdikcə artan səbirsizliklə qulaq asırdı. Bir qədər sonra onun sözünü kəsib dedi: "Həzrət Əbdül-Bəha dedi ki, siz mənə öz bədbəxtliklərinizdən danışacaqsınız".

Mirzə Heydər Əli təəccübləndi: "Bədbəxtliklərdən? Xeyr, xanım, mənim heç vaxt bədbəxtliyim olmayıb. Mən ümumiyyətlə bədbəxtliyin nə olduğunu bilmirəm".

***

Həzrət Əbdül-Bəha öz həyatının əlli ildən çoxunu zindanlarda və sürgünlərdə keçirib. Uşaq vaxtı O, heç vaxt məktəbə getməyib. Gənclik dövründə isə heç bir universitet tələbələri ilə ünsiyyətdə olmayıb. Hətta yetkin yaşlarda da O, nə dünya ədəbiyyatından məşhur kitablar oxumuş, nə də yüksək təhsilli adamlarla söhbət etmişdir.

Ancaq Həzrət Əbdül-Bəha Avropa və Amerikaya səyahət edərkən elm adamları və filosoflarla, böyük liderlərlə, görkəmli adamlarla görüşmüşdür. Siz düşünə bilərsiniz ki, Həzrət Əbdül-Bəhanın həyat təcrübəsi onu bu cür görüşlər üçün hazırlaya bilməzdi, ancaq bu belə deyil, Həzrət Əbdül-Bəha heç vaxt uyğunsuz vəziyyətə düşməyib. Söhbət zamanı hansı mövzuya toxunulurdusa, O, hər zaman özünü tamamilə sərbəst hiss edirdi. Elə təsəvvür yaranırdı ki, Həzrət Əbdül-Bəha hər şey haqqında hamıdan çox bilir və istənilən suala çətinlik çəkmədən cavab verirdi.

Ancaq eyni zamanda Öz üstünlüyünü insanlara hiss etdirmək istəmirdi. O həmişə təvazökar, xeyirxah idi və başqalarının fikrinə diqqətlə yanaşırdı.

O, həm də hamı ilə nəzakət və ehtiramla rəftar edirdi, çünki O, "hər kəsdə İlahi Atanın surətini görürdü".

***

Bir gün bir keşiş məqalə yazmaq məqsədilə məlumat toplamaq üçün Həzrət Əbdül-Bəhanın yanına gəlmişdi. O qədər də gənc olmayan bu keşişi nə Əbdül-Bəhanın özü, nə də Bəhai dini maraqlandırırdı. Əsasən qonaq özü danışırdı və elə sual verirdi ki, ona məqalə yazmaqda kömək etsin. Həzrət Əbdül-Bəha onun suallarına qısa, bəzən də "Bəli" və "Xeyr" sözlərilə cavab verirdi. Baxmayaraq ki, onu suallar yox, sualı verən adam maraqlandırması hiss olunurdu, o, söhbətin mövzusunu itirmirdi. Həzrət Əbdül-Bəha həmişə Özünün sevdiyi formada – əlini dizlərinin üstünə qoyaraq, sərbəst oturmuşdu. Onun baxışlarında o qədər məhəbbət və anlayış vardı ki, onu təsvir etmək çətindir. Həzrət Əbdül-Bəhanın üzü daxili nuru əks etdirirdi.

Keşiş isə danışmaqda davam edirdi. Həzrət Əbdül-Bəhanın yanında oturmuş adamların səbri tükənməyə başladı. Onlar düşünürdülər ki, "nə üçün Həzrət Əbdül-Bəha bu söhbəti dayandırmır? Məgər

O görmür ki, bu boş yerə vaxt itirməkdir? Bu adamı məqalə üçün alacağı puldan başqa heç nə maraqlandırmır". Ancaq Həzrət Əbdül-Bəha axıra qədər ona qulaq asdı.

Nəhayət keşiş dayandı. Bir dəqiqəlik sükutdan sonra Həzrət Əbdül-Bəhanın yumşaq, məlahətli səsi eşidildi. Onun dedikləri sözbəsöz tərcümə edilirdi. Həzrət Əbdül-Bəha Həzrət İsa Məsih haqqında, onun insanlara məhəbbəti, Xristian Missiyasının vacibliyi, Keşişlərin özündə Allahın əlamətlərini cəmləşdirməsi haqqında danışdı və qeyd etdi ki, ruhanilər insanların qəlbini möminlik həyatına cəlb etməlidir. O, gələcəkdə Məsihin yer üzündə İlahi səltənətin qurulması üçün dua etməyi əmr etməsi haqqında və Məsihin əvvəlcədən xəbər verdiyi kimi, bu Səltənətin qurulması üçün Həzrət Bəhaullahın Zühur etməsi barəsində danışdı.

Təxminən beş dəqiqə ərzində keşiş tamamilə dəyişdi. O, Həzrət Əbdül-Bəhaya baş əyib, bir dəqiqəliyə bir şagird kimi Onun ayaqları yanında donub qaldı. Sanki o və o otaqda olanlar da, tamam başqa bir aləmə düşdü. Keşişin üzü nurlandı, sanki onun daxilində işıq yandı.

Həzrət Əbdül-Bəha qalxıb, qonağı mehribanlıqla bağrına basıb, qapıya qədər ötürdü. O, orada dayandı və gözləri sübh çağı Onun dostlarından birinin gətirdiyi qızılgül dəstəsinə dəydi. Dəstədə ən azı qırx, bəlkə də altmışa yaxın qızılgül var idi. Onlar o qədər çox, saplaqları uzun idi ki, onları heç bir güldana qoymaq mümkün deyildi və ona görə də onları çətir qabına qoymalı oldular.

Gülləri görəndə Həzrət Əbdül-Bəha güldü. Onun uşaq gülüşü bütün otağa yayıldı. O, dayandı, gül dəstəsini götürüb qonağa uzatdı. Keşiş yerində dayanıb qalmışdı – Onun bəyaz saçları, gül dəstəsinin arxasından görünürdü. O, tamam dəyişmiş, nurlanmış və sakitləşmişdi. Bəli, Həzrət Əbdül-Bəha Allaha məhəbbəti necə aşılamağı yaxşı bilirdi.

***

Bu hekayə iyirmi nəfərə yaxın məşhur, yüksək vəzifəli amerikalıların iştirak etdiyi qəbul zamanı Həzrət Əbdül-Bəhanın yaratdığı təəssüratdan danışır:

Bu görüşü Həzrət Əbdül-Bəha Əkkada, zindanda olarkən, Onu ziyarət etmiş bir qadın təşkil etmişdi. Həzrət Əbdül-Bəhanı ziyarət etdikdən sonra onun həyatı tamamilə dəyişmişdi və O istəyirdi ki,

dostları da Həzrət Əbdül-Bəha ilə tanış olsunlar. Ancaq bu qadını görüşün necə keçəcəyi narahat edirdi, çünki qonaqlar məşhur alimlər, artistlər və həkimlər idi. Bu adamları din o qədər də maraqlandırmırdı. Onlardan bəziləri Allahın varlığına inanmır və bu sual onları heç də maraqlandırmırdı.

Əlbəttə, qadın görüşün uğurlu keçməsini istəyirdi və onu Həzrət Əbdül-Bəhanın vəziyyəti necə idarə edəcəyi maraqlandırırdı. Bir qədər tərəddüdlə, o, Həzrət Əbdül-Bəhadan ölümdən sonrakı həyat barədə danışmağı xahiş etdi, qalan məsələlərdə isə Ona təvəkkül etməyi qərara aldı.

Nahar vaxtı söhbət adi şeylərdən gedirdi. Həzrət Əbdül-Bəha da söhbətin mövzusunu dəyişdirməyə səy göstərmirdi. Ancaq bir qədər vaxtdan sonra söhbəti ruhani mövzuya gətirmək üçün ev sahibəsi Həzrət Əbdül-Bəhanı qonaqlara təqdim etdi.

Həzrət Əbdül-Bəha qonaqlardan icazə istədi ki, çox sayda bildiyi Şərq hekayətlərindən birini danışsın. O, söhbəti bitirəndə, hamı ürəkdən güldü, artıq buz qırılmışdı. Qonaqlar da öz hekayətlərindən danışmağa başladılar. Həzrət Əbdül-Bəha gülümsəyərək, bir hekayə də danışdı və sonra daha birini

nəql etdi. Onun gülüşü otağı doldurdu. O dedi ki, insanların gülməsi çox yaxşıdır. Gülüş – ruhani yüngülləşmədir, azad olmaqdır.

Həzrət Əbdül-Bəha nəql etdi ki, həbsxanada olarkən, Onların həyatı çox ağır idi. Lakin Həzrət Əbdül-Bəha ilə birlikdə oturan hər bir kəs, gün ərzində başına gələn ən gülməli hadisələri danışardı. Bəzən elə olurdu ki, danışıb gülməyə bir şey tapmaq çətin olurdu, ancaq hər dəfə gözlərindən yaş gələnə qədər gülərdilər. Həzrət Əbdül-Bəha dedi: "Xoşbəxtlik sizin harada və hansı şəraitdə olmağınızdan asılı deyil".

Nahar vaxtı Əbdül-Bəhanın Həzrət Bəhaullahın təlimi, ruhani mövzular haqqında dediyi sözlər ancaq bunlardan ibarət idi. Əgər O din haqqında uzun bir mühazirə oxusaydı, bəlkə də, bu qədər təsirli olmazdı.

Qonaqlar dağılandan sonra öz qonaq otağına getməyə hazırlaşan Həzrət Əbdül-Bəha ev sahibəsinə yaxınlaşdı və çəkinərək ondan soruşdu: "Siz Məndən razısınızmı?"

***

Həzrət Əbdül-Bəhanın təbliğ etməsi barədə başqa bir misal. Bir nəfər ağır cərrahiyə əməliyyatı keçirmişdi. Bir ildən sonra onu daha bir əməliyyat gözləyirdi. Bu onu o qədər narahat edir və əsəbiləşdirirdi ki, ömrünün çox hissəsini siqaret çəkmiş bu adam qərara gəlir ki, onu tərgitsin. O, əvvəllər həmişə öyünürdü ki, istədiyi zaman siqareti tərgidə bilər. Həyatında bir neçə dəfə, bir neçə aylığına o, siqareti tərgitmişdi. Amma bu dəfə o heyrətlə şükr etdi ki, onun əsəblərinin belə gərgin vaxtında nə qədər çalışsa da, 1-2 gündən artıq siqaret çəkmədən dayana bilmir. Nəhayət o, Həzrət Əbdül-Bəhanın yanına gedib ondan kömək istəmək qərarına gəldi. O, eşitmişdi ki, Həzrət Əbdül-Bəha bəhailəri inandırır ki, siqaret çəkməkdən uzaq dursunlar. O, özözünə dedi: "Əlbəttə, bu vərdişin öhdəsindən gəlmək üçün Həzrət Əbdül-Bəha mənə bir məsləhət verər".

O, Həzrət Əbdül-Bəha ilə növbəti görüşdə bu barədə Ona danışdı. Bu zaman o, anasının qarşısında nəyisə etiraf edən uşağı xatırladırdı. Onun səsi getdikcə azalırdı və bir qədərdən sonra tamam kəsildi. Həqiqətən də, Həzrət Əbdül-Bəha başqaların-

dan daha çox başa düşür. Onun baxışlarında elə böyük məhəbbət vardı ki, onunla həmsöhbət olan kəs bu baxışların istiliyini hiss etməyə bilməzdi. Həzrət Əbdül-Bəha astadan soruşdu: "Çoxmu siqaret çəkirsən?" Kişi cavab verdi.

Onda Həzrət Əbdül-Bəha davam etdi. "Mən fikirləşmirəm ki, bu bir neçə siqaret sənə zərər gətirsin. Şərqdə elə adamlar var ki, durmadan siqaret çəkirlər. Üst-başlarına, saç-saqqallarına siqaret tüstüsü hopub. Çox vaxtlar da onlardan pis qoxu gəlir. Sən ki bunlar kimi deyilsən. Bir də ki, sən çoxdan siqaret çəkirsən. Məncə, narahat olmağa dəyməz".

Həzrət Əbdül-Bəha gülümsədi. Onun nəvazişli gözlərində qığılcımlar parladı – sanki Həzrət Əbdül-Bəha yaxşı bir zarafat etdiyinə görə sevindi.

Bu adam heyrətləndi. Həzrət Əbdül-Bəha siqaret çəkməyin zərəri haqqında ona moizə oxumadı. O, hətta "tütünün sağlamlığa necə pis təsir etməsini" də izah etmədi. O, "bütün iradəni toplayıb bu zərərli vərdişi tərgitməyi" də tapşırmadı. Bunun əvəzində tam sərbəstlik verdi. Bu adam öz üzərindən böyük bir yükün götürüldüyünü hiss etdi. Həzrət Əbdül-Bəhanın ona hikmətli məsləhət ver-

diyini başa düşdü. Daxilindəki narahatlıq aradan qalxdı, əsəbiliyi keçdi. Həmin gün siqaret çəksə də artıq o özünü günahkar hiss etmirdi. Ən maraqlısı isə bu idi ki, bu söhbətdən iki gün sonra o gördü ki, artıq siqaret çəkmək ona ləzzət etmir və bundan sonra o yeddi il siqaret çəkmədi.

***

Bir dəfə Həzrət Əbdül-Bəha Nyu-Yorkun kasıb məhəllələrindən birinin sakinləri ilə görüşə getmişdi. İrandan və Amerikadan olan bir dəstə dostları Onu müşayiət edirdi. Küçələri keçərkən onların qeyri-adi görkəmi ətrafdakıların diqqətini cəlb etdi. Belə ki, iranlılar şərq üslubunda baş örtüyü və uzun ətəkli paltar geyinmişdilər. Əvvəlcədən gözlənildiyi kimi, onların arxasınca bir dəstə oğlan düşüb, nalayiq səs-küy salırdılar.

Həzrət Əbdül-Bəhanın qaldığı mənzilin sahibəsi olan Xanım Kinni Ona olan bu münasibətə dözə bilməyib, dəstədən bir qədər geri qaldı ki, uşaqlarla söhbət etsin. O bir neçə kəlmə ilə izah etdi ki, Həzrət Əbdül-Bəha övliyadır. İnsanlara və Həqiqətə olan böyük məhəbbətindən ömrünün çox hissəsini

zindanda keçirib və indi O, Boveri Missioner yerinə kasıblarla görüşə gedir.

"Biz də gedə bilərikmi?" – uşaqların başçısı soruşdu. Xanım Kinni dedi ki, indi bu mümkün deyil. "Ancaq əgər siz növbəti bazar günü bizə gələ bilsəniz, mən sizin Həzrət Əbdül-Bəha ilə görüşünüzü təşkil edərəm". O, uşaqların gəlməsinə o qədər inanmasa da, onlara öz ünvanını verdi.

Növbəti bazar günü uşaqlar Xanım Kinninin evinə gəldilər. Onlar çox idilər, təxminən 20-30 nəfər, hamısı da kasıb ailədən idilər. Uşaqlar o qədər də yaxşı geyinməmişdilər, ancaq xüsusi bir yerə hazırlaşmış kimi, təmiz və səliqəli idilər. Uşaqlara qapını açan kimi səs-küylə içəri girib, pilləkənlə yuxarı qalxdılar.

Onları qəbul etməyə hazırlaşan Həzrət Əbdül-Bəha qapının yanında dayanmışdı. O, uşaqların hər biri ilə ayrı-ayrı görüşdü. Kiminsə əlini sıxdı, kiminsə bağrına basdı – hər dəfə də təbəssüm və gülüşlə. Bu da Onu uşaqlara bənzədirdi.

Siz uşaqların bu zəngin evdə, onlara yad olan şəraitdə özlərini narahat hiss etdiklərinimi düşü-

nürsünüz? Əsla! Onlar sanki Həzrət Əbdül-Bəha ilə bir otaqda olmaqdan xoşbəxt idilər.

Otağa axırda daxil olan uşaqların içərisində, təxminən 13 yaşlı, dərisinin rəngi fərqli olan bir oğlan var idi. Onun dərisi kifayət qədər qara olduğundan və uşaqların arasında ona bənzər uşağın olmadığından hiss olunurdu ki, o, bir qədər çəkinir, qəbul olunmayacağından qorxur. Həzrət Əbdül-Bəha bu uşağı görəndə onun üzü səmavi təbəssümlə nurlandı. O, əlini qaldırıb uşağa təmtəraqla salam verdi və hamının eşidəcəyi səslə uşaqların arasında "Qara qızılgül" olduğunu söylədi.

Birdən otaqda sakitlik yarandı. Oğlanın tutqun sifəti sözlə ifadə oluna bilməyən bir sevinc və məhəbbətlə işıqlandı. Başqa uşaqlar ona yeni gözlə baxdılar. Əvvəllər onların ağlına gəlməzdi ki, bu oğlanı qara qızılgül kimi gözəl bir şeylə müqayisə etmək olar.

Uşaqlar əvvəlki kimi özlərini rahat və sərbəst hiss edirdilər, onların üzü ciddi görkəm almışdı və gözlərini Həzrət Əbdül-Bəhanın gözlərindən çəkmirdilər. Onların müəmmalı baxışları təkrar-təkrar qaradərili oğlanın üzərində dayanırdı. Həzrət Əb-

dül-Bəha uşaqlara hiss etdirmədən, onlara yaxşı dərs vermişdi.

Qonaqlar gələn kimi Həzrət Əbdül-Bəha şirniyyat almaq üçün adam göndərdi və tezliklə şirniyyat gətirdilər. Bu içərisində bahalı konfetlər olan beşgirvənlik qutu idi. Qutunu açdılar və Həzrət Əbdül-Bəha uşaqların içərisi ilə keçə-keçə, hərəsinə bir böyük ovuc konfet verir, hər dəfə də gözəl bir söz və ya təbəssümlə, onların başını sığallayır və gülümsəyirdi. Sonra o, stolun yanına qayıdıb, içərisində bir neçə konfet qalmış qutunu stolun üstünə qoydu və oradan uzun, qara şokolad götürdü. Əvvəl şokolada, sonra isə qonaqlarına baxdı. Uşaqlar nə isə gözləyirmiş kimi diqqətlə Həzrət Əbdül-Bəhaya baxırdılar. O bir söz demədən otağın o başından bu başına keçərək qaradərili oğlanın oturduğu yerə gəlib, otaqdakı uşaqlara təsirli bir baxışla göz gəzdirərək, şokoladı oğlanın qara yanaqlarına yaxınlaşdırdı.

Həzrət Əbdül-Bəhanın üzü nur saçırdı və O həmin oğlanı bağrına basanda bu nur sanki bütün otağı doldurdu. Heç bir sözə ehtiyac yox idi. Bütün uşaqlar onun nə demək istədiyini onsuz da başa

düşmüşdülər. O, bu qaradərili oğlanı nəinki qara qızılgülə, həm də qara şokalada bənzətmişdi. Siz qara şokaladı ən yaxşı hesab edib onu yeyirsiniz. Qara dərili qardaşınıza da baxın, o da gözəldir.

***

Bir dəfə, Həzrət Əbdül-Bəha Vaşinqtonda olanda, qaradərili amerikalı dostu cənab Qreqorini Həzrət Əbdül-Bəhanın şərəfinə səhər yeməyi verən yüksək mənsəbli bir dövlət məmurunun evinə dəvət etdi. Cənab Qreqori mat qalmışdı, çünki dəvətnamə almamışdı, digər tərəfdən isə, adətən, ağ amerikalılar qara amerikalılarla bir stol arxasında oturmurlar. Lakin o hiss edirdi ki, bir halda, Həzrət Əbdül-Bəha onu orada görmək istəyir, getməlidir.

Həzrət Əbdül-Bəha dostunu həmişəki kimi qarşıladı – hərarət və mehribanlıqla, gülərüzlə. Onlar bir saata qədər müxtəlif mövzularda söhbətlər etdilər. Nəhayət xidmətçi qapıda göründü və elan etdi ki, səhər yeməyi hazırdır.

Tez yerindən qalxan Həzrət Əbdül-Bəha yemək otağına tərəf getdi, cənab Qreqori isə qaldı və bilmədi ki, nə etsin. Çıxıb getsinmi, yoxsa gözləsin?

Həzrət Əbdül-Bəha stola yaxınlaşdı və birdən dayanıb ingiliscə ucadan dedi: "Bəs mənim dostum cənab Qreqori haradadır? Mənim dostum cənab Qreqori mənimlə birlikdə səhər yeməyi yeməlidir".

Ev sahiblərinin cənab Qreqorinin arxasınca xidmətçi göndərməkdən başqa çarələri qalmadı. Bu zaman Həzrət Əbdül-Bəha isə, yanındakı bıçaqları, çəngəlləri və qədəhləri bir tərəfə yığdı ki, onun üçün Öz yanında yer hazırlasın.

Səhər yeməyi zamanı cənab Qreqori Həzrət Əbdül-Bəha ilə bir yerdə, ən hörmətli yerdə əyləşmişdi. Həzrət Əbdül-Bəha Özü isə qonaqları elə əyləndirdi ki, dərhal hamı, ən azı müəyyən müddətdə dərisinin rənginə görə başqa insanlardan xoşlanmamaq kimi cəfəng şeyləri unutdular.

***

Həzrət Əbdül-Bəha heç vaxt heç kimdən pul hədiyyəsi almazdı. Amma cib dəsmalı, konfet qutusu, bir səbət meyvə və ya bir dəstə gül kimi sadə bəxşişlər Ona böyük məmnunluq gətirirdi. Bu cür bəxşişləri O minnətdarlıq təbəssümü ilə qəbul edər və sonra onları Onun yanına qonaq gələn dostlara

paylayardı. Və Həzrət Əbdül-Bəhadan belə hədiyyələr almağı hamı sevərdi. Hətta İran şahzadəsi Onun hədiyyəsini saxlayırdı – bu, qırmızı dəridən olan bir cüt otaq ayaqqabısı idi ki, Həzrət Əbdül-Bəha ona Londanda olanda bağışlamışdı.

Bir dəfə bir qadın Həzrət Əbdül-Bəhaya dedi: "Mən dostumdan Sizə bir çek gətirmişəm, o xahiş edir ki, bunu qəbul edəsiniz ki, onunla bir yaxşı avtomobil alasınız ki, İngiltərə və Avropanın digər ölkələrində onunla səyahət edəsiniz".

Həzrət Əbdül-Bəha cavabında dedi: "Mən sizin dostunuzun hədiyyəsini məmnuniyyətlə qəbul edirəm". O iki əli ilə çeki sanki ona xeyir-dua verirmiş kimi aldı və dedi: "İndi isə mən onu sizə qaytarıram ki, siz onu kasıblara kömək üçün xərcləyəsiniz".

***

İndi isə Aşqabaddan kasıb bir bəhainin göndərdiyi hədiyyə haqqında. O, eşitmişdi ki, Londona Həzrət Əbdül-Bəha ilə görüşə gedən bir səyyah onların şəhərindən keçəcək və o, çox sevdiyi Ağasına hədiyyə göndərmək istədi. Ancaq uyğun bir hədiyyə olmadığından, səyyahdan xahiş etdi ki, Həzrət Əbdül-Bə-

haya olan məhəbbətinin nişanəsi kimi balaca bir dəsmala bükülmüş nahar yeməyini Ona aparsın.

Səyyah Londona çatanda xeyli vaxt keçmişdi. O, Həzrət Əbdül-Bəhanın yanına gələndə, Həzrət Əbdül-Bəha bir neçə qonaqla birgə səhər yeməyinə hazırlaşırdı. Səyyah kasıb bəhainin dəsmala bükülmüş hədiyyəsini söz verdiyi kimi, Həzrət Əbdül-Bəhaya təqdim etdi və bu hədiyyəni necə almasını Ona söylədi. Həzrət Əbdül-Bəha dəsmalı açdı. Orada bir parça quru qara çörək və büzülmüş alma var idi. Həzrət Əbdül-Bəha nə etdi?! O, çörəyi hissələrə bölüb qonaqlara bu fəhlənin naharını Onunla bölüşməyi təklif etdi. "Mənimlə bu kiçik məhəbbət sovqatını dadın" – dedi. Həzrət Əbdül-Bəha özünün səhər yeməyinə isə əl vurmadı.

***

Həzrət Əbdül-Bəha Dublində olarkən, balaca bir mehmanxanada qalırdı. Bu hadisəni elə həmin vaxt o mehmanxanada yaşayan bir qadın danışır.

Bir gün səhər tezdən qadın təsadüfən pəncərədən baxanda görür ki, Həzrət Əbdül-Bəha otaqda var-gəl edə-edə Öz katibinə nə isə deyir, katib isə yazır. Bu

zaman mehmanxananın yanından paltarı köhnə və cırılmış bir qoca keçirdi. Həzrət Əbdül-Bəha katibini göndərib, qocanı çağırtdırır.

Həzrət Əbdül-Bəha onunla salamlaşmaq üçün qabağa çıxır. O, Öz köhnə dostu ilə görüşürmüş kimi gülümsəyərək, qocanın əlini sıxır. O, qocanın əhvalını bir qədər yaxşılaşdırmaq məqsədilə onunla bir neçə dəqiqə söhbət edir. Nəhayət qoca azacıq da olsa gülümsədi, lakin onun gözləri çox kədərli idi. Söhbət edərkən Həzrət Əbdül-Bəha gördü ki, onun şalvarı o qədər cırıqdır ki, bədənini güclə örtür. Əbdül-Bəha dedi "Biz nə isə etməliyik".

Hələ çox tez olduğundan küçədə heç kim yox idi. Həzrət Əbdül-Bəha divarın kölgəsinə keçib plaşa bürünərək şalvarının düyməsini açdı. Sonra O əyildi və şalvar yerə düşdü. Plaşa bürünərək qocaya tərəf döndü və şalvarı ona uzatdı. "Allah sənə kömək olsun" – O dedi. Sonra Əbdül-Bəha otağa, katibinin yanına qayıtdı və heç nə olmamış kimi işləməkdə davam etdi.

***

Bir dəfə Londonda ziyarətçilərdən biri belə bir sual verdi: “bu bədbəxt dünya nə vaxtsa xoşbəxt olacaqmı?”

Həzrət Əbdül-Bəha ona cavab verdi: “Baxın, o zamandan artıq iki min il keçib ki, Həzrət İsa o zaman öz ümmətinə belə bir dua öyrətmişdi: “Qoy Sənin səltənətin zahir olsun; Qoy Sənin iradən həm yerdə, həm də göydə bərqərar olsun”. Siz necə düşünə bilərsiniz ki, O bizə heç vaxt baş verməyəcək bir şey üçün dua etməyi vəsiyyət etsin? Hələ bu dua təkcə dua deyil, həm də öngörmədir, kəhanətdir”.

Qonaq dedi: “Əbdül-Bəha, bəs onda səma səltənəti nə zaman zahir olacaq? Onun iradəsi yerdə və göydə nə qədər tez ortaya çıxacaq”.

“Bu çox şeydən asılıdır,” – Həzrət Əbdül-Bəha dedi. “Hər şeydən əvvəl ondan asılıdır ki, sizlərin hər biriniz ürəkdən, gecə və gündüz Onun Əmrinə necə xidmət edirsiniz. Sizin hamınız məşəllərsiniz ki, Mən Öz əllərimlə yandırmışam. Siz də gedin və başqalarını alovlandırın, o vaxta qədər ki, Onun bir-birindən ayrı qalan bəndələri böyük Birlik altında toplaşsınlar”.

"Təkbaşına çalışanlar qarışqaya bənzəyirlər – O buyurdu, – lakin onlar birləşəndə qartal kimi olurlar. Təklikdə işləyənlər bir damla kimidirlər, lakin onlar birləşəndə böyük çay olurlar, elə bir çay ki, şəffaf həyat sularını dünyanın səhra guşələrinə aparırlar. Bu qüdrətli həyat çayı axdıqda, o bütün bədbəxtlikləri, bəla və kədəri yuyub aparacaq. Birləşin! Yalqız damla olmaq təhlükəlidir: o asanlıqla izsiz yox ola bilər".

***

Həzrət Əbdül-Bəha rastlaşdığı bütün insanlara öz ailəsinin üzvü kimi yanaşırdı. Bir dəfə O, İngiltərədə iki xanımla söhbət edərkən xanımlardan biri soruşdu: "Cənab, məgər Siz Hayfaya Öz sevimli ailənizlə bir yerdə olmağa can atmırsınızmı?"

Həzrət Əbdül-Bəha gülümsəyərək cavab verdi: "İstərdim siz biləsiniz ki, ikiniz də mənim üçün qızlarım kimisiniz, siz mənə Hayfadakı doğma qızlarım qədər əzizsiniz".

Xanımlar öz qulaqlarına inanmadılar. Onlar bu şərəfə necə nail olmuşdular? Ancaq bu söhbətdən

xanımlar Onu başa düşdülər ki, "Bütün insanlar bir ailənin üzvləridir" deyən zaman Həzrət Bəhaullah bəşəriyyətin birliyi ilə nəyi nəzərdə tutmuşdur.

***

Həzrət Əbdül-Bəha uşaqları çox sevirdi. Bir dəfə O, Londonda olarkən bir ailə Onu bir neçə dostları ilə birlikdə öz evinə dəvət etmişdi. Ailədə üç uşaq var idi. Bir dəqiqə keçməmiş bu uşaqlar Həzrət Əbdül-Bəhanın dizləri üstündə oturdular. Uşaqlar gah Onun boynunu qucaqlayır, gah da Onunla oynamaq istəyirdilər. Həzrət Əbdül-Bəha söhbət edərkən pişik balası kimi susurdular.

O, danışarkən uşaqların başını sığallayırdı: "Bu uşaqlar xoşbəxtdirlər. Həzrət İsa onlar haqqında buyurub: "Səma səltənəti onlara məxsusdur". "Onlar maddi aləmə iddialı deyillər. Onların qəlbi təmizdir. Biz uşaqlara bənzəməliyik... Öz qəlbimizi təmizləməliyik, o vaxt biz Rəbbi Onun bütün qüdrətli təcəlliləri ilə görə bilərik və Elçilərinin gətirdiyi qanunlara tabe olarıq".

Elə həmin gün Həzrət Əbdül-Bəha Riçmond-parka gəzintiyə çıxmışdı. Orada ponilərə (kiçik

boylu at cinsi) minmiş oğlanlar və qızlar arasında yarış keçirilirdi. Həzrət Əbdül-Bəha bir neçə iştirakçı oğlanların arasında bir balaca qızın olduğunu gördü. Həzrət Əbdül-Bəha yarışlarda bu balaca qızın qalib gəlməsindən çox razı qaldı. "Əhsən! Əhsən!" – deyə qızı alqışladı.

***

Həzrət Əbdül-Bəha bütün insanları xoşbəxt görmək istəyirdi. O, bunu göstərməyi bacarırdı. O, insanların öz həyatlarından razı olub olmadıqları ilə maraqlanardı. Bilmək istərdi ki, onlarda hər şey qaydasındadırmı?

Bir dəfə Londonda mətbəxdən gələn qəhqəhəli gülüş səsi onun diqqətini cəlb etdi. O, cəld bu şən söhbətə qoşulmaq üçün mətbəxə keçdi.

Həzrət Əbdül-Bəha dedi: "Sizin belə şad olmağınız Mənim çox xoşuma gəlir. Deyin görüm sizi belə güldürən nədir?"

Məlum oldu ki, İrandan olan xidmətçi İngiltərəli təsərrüfat müdirəsi ilə söhbət edirmiş. İrandan olan xidmətçi dedi: "Şərqdə, qadınlar örtük örtürlər və bütün işləri özləri görürlər". Onun bu sözlərinə

İngilis qadın belə cavab verdi: "Qərbdə qadınlar örtük örtmürlər, çalışırlar ki, işin heç olmasa bir hissəsini kişilər görsün. Ona görə də gümüş əşyaları təmizləməkdə davam edin".

Həzrət Əbdül-Bəha ürəkdən güldü və onların əhvalını bir qədər də qaldırmaq üçün hərəsinə bir qızıl pul verdi.

***

Həzrət Əbdül-Bəha qadınların işinə, həyatına və inkişafına şəfqətlə yanaşırdı. O Avropa və Amerikada səyahətdə olarkən bir çox məşhur qadınlar - Teosaf cəmiyyətinin prezidenti xanım Enni Bezant müxtəlif qadın təşkilatlarının başçıları, sosial xidmət işçiləri, qadın kolleclərinin direktorları onu görməyə gəlirdilər.

Bir dəfə qadınların seçki hüququ uğrunda hərəkatın fəal iştirakçısı olan bir xanım Həzrət Əbdül-Bəhanın yanına gəlmişdi. Həzrət Əbdül-Bəha dünyanın müxtəlif yerlərində yaşayan qadınların vəziyyəti haqqında bir qədər danışdıqdan sonra, üzünü gələn qonağa tutdu: "Siz necə fikirləşirsiniz, qadınların bu seçkilərdə iştirak etməsi nə üçün lazımdır".

O cavab verdi: "Mən ona inanıram ki, insan irqi İlahidəndir və o daim yüksəkliklərə qalxmalıdır. Ancaq bir qanadla uçmaq mümkün deyil".

Həzrət Əbdül-Bəha onun cavabından çox razı qaldı. O, gülümsəyərək soruşdu: "Bəs əgər qanadın biri zəifdirsə, nə etmək olar?

Qadın cavab verdi: "O zaman biz zəif qanadın güclənməsinə çalışmalıyıq, əks halda uçuş rəvan olmaz".

Həzrət Əbdül-Bəha yenə gülümsədi və dedi: "Əgər mən qadınların güclü qanad olmasını sübut etsəm, sizin sözünüz nə olacaq?"

"Siz mənim əbədi minnətdarlığımı qazanacaqsınız" – deyə qadın ən parlaq cavabını verdi.

***

İnsanlar Həzrət Əbdül-Bəhanın hər zaman güclü və enerjili olmasına çox təəccüb edirdilər.

Bir dəfə O, bir yığıncaqdan evə bərk yorğun qayıtmışdı. Dostları onu belə yorğun, əldən düşmüş görüb, narahat oldular. Hələ Həzrət Əbdül-Bəha öz otağına çatmaq üçün çoxlu pilləkən qalxmalı idi.

Birdən hamını heyrətləndirərək, Həzrət Əbdül-Bəha dayanmadan qaçaraq pilləkənin yuxarısına

çıxdı və pilləkənlərin başından aşağıya baxıb dedi: "Siz hamınız çox qocasınız. Ən cavanınız mənəm". Onun üzündəki yorğunluq tamamilə silinib getmişdi. O, dayanıb gülümsəyirdi.

Hamının çox təəccübləndiyini görəndə isə dedi: "Həzrət Bəhaullahın gücü tükənməzdir. Mən indicə bu gücdən istifadə etdim".

***

Həzrət Əbdül-Bəha ingiliscə, demək olar, heç danışmasa da, Öz missiyasını insanlara çatdırmaqda Onun heç bir çətinliyi yox idi. Əgər insanlar Onun sözünü başa düşmürdülərsə, O onların ürəyinə müraciət edirdi və hər şey aydın olurdu.

Bu əhvalat yazmağı və oxumağı bacarmayan bir amerikalı şaxtaçı barədədir. O, Həzrət Əbdül-Bəha haqqında eşitmişdi və piyada uzun bir yola çıxaraq San-Fransiskoya gəlmişdi ki, Onunla görüşsün. Bu şəxsin təhsili yox idi, lakin onda ruhun gücü vardı. Bir dəfə O, Həzrət Əbdül-Bəhanın çıxış etdiyi bir məclisə gəldi. Şaxtaçı ürəyi və gözləri ilə Ona diqqət kəsilmişdi, Onun hər hərəkətini və səsi-

ni tuturdu. Elə bil ki, o dodaqlarını canlandırıcı bir çeşməyə dayamışdı və ondan içirdi.

Tərcüməçi Həzrət Əbdül-Bəhanın nitqini ingilis dilinə çevirməyə başlayanda, şaxtaçı pıçıldadı: "Bu adam niyə mane olur?"

Həzrət Əbdül-Bəha yenə danışmağa başlayanda şaxtaçı yenə də Ona diqqət kəsildi. Və yenə də ingilis dilinə tərcümə etməyə başlayanda o səbrini itirdi və dedi: "Axı niyə icazə verirlər ki, bu adam nitqi kəssin? Onu buradan götürmək lazımdır".

Şaxtaçının yanında oturan adam ona izah etdi: "O rəsmi tərcüməçidir. O fars dilindən ingilis dilinə tərcümə edir ki, sən başa düşəsən".

Bunun cavabında şaxtaçı: "Məgər O fars dilində danışırdı? Niyə, axı elə onsuz da hamı başa düşürdü".

***

Həzrət Əbdül-Bəha heç vaxt heç nədən qorxmazdı. Bir dəfə necəsə, məşhur bir qadın bəhai bir məktub aldı. Məktubda deyilirdi: "Yaxşı olardı, Həzrət Əbdül-Bəhaya xəbər verəsiniz ki, mən bildiyimə görə, Onun yaxın günlərdə planlaşdırdığı səfər Onun üçün təhlükəli ola bilər".

Bu məktubu yazan adam həmin qadının sadiq dostu idi və qadın da qərara aldı ki, təhlükə barədə Həzrət Əbdül-Bəhanı xəbərdar etsin.

Həzrət Əbdül-Bəha bunu eşidəndə O sadəcə güldü və dedi: "Qızım, məgər sən hələ başa düşməmisənmi ki, həyatım boyu təhlükədə olmadığım bir gün belə olmayıb və bu dünyanı tərk edib Atamın yanına getmək üçün anca sevinərəm".

Özünü itirmiş qadını qorxu bürüdü: "Ey Ağa!, – o həyəcanla dedi: "Biz istəmirik ki, Sən bizi tərk edəsən!"

"Narahat olma," – O cavab verdi. "Mənim düşmənlərimin yuxarıdan veriləndən başqa mənim üzərimdə heç bir hökmləri yoxdur. Əgər sevgili Rəbb Mənim həyatımın Öz qurbangahında alınmasını istəsə, bu mənim üçün ən böyük gün olacaq və mən buna yalnız ümid edirəm".

Bu sözlərdən sonra Həzrət Əbdül-Bəhanın dostları başa düşdülər ki, həqiqi iman nə deməkdir. Və bu onların öz imanlarını elə möhkəmlətdi ki, hətta bir dəfə onların bağına yad bir adam gəlib onları xəbərdar edəndə ki, təkcə Həzrət Əbdül-Bəhanın deyil, onların hamısının həyatı təhlükədədir,

onlardan biri təmkinlə bu sözləri dedi: "Ağanı qoruyan güc, Onun xidmətçilərini də qoruyar. Ona görə də biz heç nədən qorxmuruq".

Bu sözlərdən heyrətə düşən adam bir söz belə söyləmədən çıxıb getdi.

***

Həzrət Əbdül-Bəhanın Parisdən getməsindən iki gün əvvəl bir qadın elə məclis zamanı təngnəfəs Onun evinə girərək dedi: "Oh, nə yaxşı ki, vaxtında gələ bildim," – deyə o köksünü ötürdü. "Mən Amerikadan gəlmişəm və indi sizə deməliyəm ki, niyə belə tələsirdim". Və o öz hekayəsini nəql etdi.

"Bir dəfə," – qadın danışmağa başladı, – "mənim balaca qızım öz sualı ilə məni heyrətləndirdi".

– Anacan, əgər Həzrət İsa bu gün yer üzündə olsaydı, sən nə edərdin?

– Əziz balam, mən elə ilk qatara minib mümkün qədər tez onun yanına gedərdim.

– Axı anacan, o doğrudan da indi yer üzündədir.

Balacanın bu sözlərindən məni qəribə bir hiss bürüdü.

– Bu nə deməkdir, mənim əzizim. Axı sən bunu haradan bilirsən?

– O özü mənə deyib, əlbətdə o yerdədir, - qızım cavab verdi.

Heyrətə düşmüş halda öz-özümə fikirləşdim: “Bu, balamın dili ilə mənə çatdırılmış müqəddəs müjdə deyilmi?” Və mən dua elədim ki, hər şey tezliklə aydınlaşsın.

O biri gün qızım yenə bu barədə söhbət açdı və nə üçün mənim onun sözlərindən sonra hələ də bir tədbir görmədiyimi soruşdu: “Anacan, əzizim, nə üçün sən hələ də Rəbb İsanı görməyə getməmisən? O artıq iki dəfə mənə deyib ki, buradadır, yer üzündədir”. Mən cavab verdim: “Körpə balam, axı sənin anan Onun harada olduğunu bilmir. Onu harada axtarsın?” Qızım həyəcanla dedi: “Biz öyrənərik, anacan öyrənərik”.

Həmin gün mən qızımla gəzməyə çıxmışdım. Birdən O dayandı, donub qaldı, sonra qışqırdı: “O ordadır, ordadır!” Qızım həyəcandan əsir və Həzrət Əbdül-Bəhanın fotoşəkli olan vitrini göstərirdi. Mən bu şəkli alıb sizin ünvanı öyrəndim və elə həmin axşam gəmiyə bilet alıb, buraya gəldim!”

***

Həzrət Əbdül-Bəha Londonda olanda bir qadın onunla görüşməyə icazə istədi. Giriş qapısında onunla qarşılaşan xidmətçi soruşdu: "Sizinlə görüş vaxtı təyin olunubmu?" Qadının görüşü təyin olunmadığından, onu məyusluq bürüdü.

"Mən təəssüf edirəm, ancaq Həzrət Əbdül-Bəha indi çox mühüm adamlarla məşğuldur. Onu narahat etmək olmaz".

Belə bir görüşdə təkid etmək üçün kiçik bir adam olduğunu hiss edən qadın geriyə, qapıya tərəf qayıtdı. Onu bürüyən ümidsizlik və pərişanlıq necə də acı idi! O, pilləkənlərlə aşağı düşdü. Elə həyət qapısına çatar-çatmaz xidmətçi qaça-qaça gəlib dedi:

"Həzrət Əbdül-Bəha sizi görmək istəyir. Siz qayıtmalısınız. Tapşırıb ki, sizi Onun yanına aparım".

Evdəkilər qonaq otağından gələn Həzrət Əbdül-Bəhanın səsini eşitdilər. "Bir ürəyi incitdilər. Tez olun, tez olun o, qadını mənim yanıma gətirin!"

***

Bir gün Londonda bir neçə dost, axşamı Həzrət Əbdül-Bəha ilə bir yerdə, kənar adamların iştirakı olmadan keçirməyi qərara aldılar. Belə hallar çox az-az olurdu. Dostlar bu axşam Həzrət Əbdül-Bəhanın tamamilə onların ixtiyarında olacağına çox sevinirdilər. Ancaq yarım saat keçməmiş bir qəzet müxbiri onların bu sevincini boşa çıxardı. Xidmətçilərə fikir vermədən otağa daxil olan muxbir inadkarlıqla Həzrət Əbdül-Bəhadan müsahibə götürmək üçün icazə vermələrini tələb edirdi. Stula yayılıb oturan müxbir icazə istəmədən siqaret yandırıb, Həzrət Əbdül-Bəhaya dedi: "Bilirsinizmi, mən qəzet üçün məqalə yazıram və bir neçə məsələləri Sizinlə müzakirə etmək istərdim".

Müxbir çox nəzakətsiz danışmaqda davam edir, otaqdakılar isə üzgün halda susub, qulaq asırdılar. Bu müxbir onların sakit bir axşam keçirmək planlarını alt-üst etmişdi.

Bir az sonra Həzrət Əbdül-Bəha ayağa qalxdı və müxbirə Onun arxasınca gəlməyi işarə etdi. Onlar Həzrət Əbdül-Bəhanın otağına keçdilər.

Həzrət Əbdül-Bəha çıxdıqdan sonra otaq sanki dərhal boşaldı. Dostlar kədərlə bir-birinin üzünə

baxdılar. "Bu dəhşətli müxbir getdi, amma təəssüf ki, Həzrət Əbdül-Bəha da getdi".

Ev sahibəsi Həzrət Əbdül-Bəhanın otağının qapısına yaxınlaşıb katibinə dedi: "Lütfən Həzrət Əbdül-Bəhaya deyin ki, görüş təyin etmiş olduğunuz xanımlar Onu gözləyirlər".

Sahibə qonaqların yanına qayıtdı və bütün bunların nə ilə qurtaracağını gözlədi. Elə bu vaxt dəhlizdə addım səsləri eşidildi. Sonra Həzrət Əbdül-Bəha qapının yanında müxbirlə mehribanlıqla xudahafizləşərək, dostlarının yanına qayıtdı.

Onu görəndə dostların üzündə yenə əvvəlki xoşbəxt ifadə göründü. Lakin Həzrət Əbdül-Bəha qapıda görünəndə ciddi bir tərzdə otaqdakıların üzünə baxıb dedi: "Siz o zavallının çıxıb getməsini o qədər istəyirdiniz ki, o özünü narahat hiss edirdi. Mən onu apardım ki, bir qədər ürəkləndirim".

***

Bir gün Həzrət Əbdül-Bəhanın yaşadığı evin həyət qapısından kişi səsi eşidildi: "Mən bu evin sahibəsini görə bilərəmmi?"

Xidmətçi cavab vermək istədi: "Bəli, ancaq..."

Kişi ona aman verməyərək bərkdən dedi: "Çox rica edirəm, lütfən, mən o qadını görməliyəm". Səsə evin sahibəsi çıxdı.

Kişi onu görüb soruşdu: "Siz Həzrət Əbdül-Bəha yaşayan evin sahibisinizmi?"

– Bəli, siz Onu görmək istəyirdinizmi?

– Mən piyada otuz mil yol gəlmişəm, – deyə kişi cavab verdi.

Qadın onu içəri dəvət etdi: "Keçin, əyləşin. Bir tikə çörək yeyin, sonra hər şeyi danışarsınız".

Kişi qonaq otağına keçdi və əyləşdi. O, adi bir səfil kimi görünürdü. Ancaq qonaq söhbətə başlayanda, məlum oldu ki, O heç də həmişə belə olmayıb. Qonaq öz tarixçəsini danışmağa başladı:

"Mən heç vaxt indi gördüyünüz kimi olmamışam. Atam kənd keşişidir. Və mənim yaxşı məktəbdə oxumaq imkanım olub. Bu günsə mən evsiz-eşiksiz biriyəm. Adətən Temzanın sahilində gecələyirəm. Mənim bu vəziyyətə necə gəlib çatmağım vacib deyil. Keçən gecə mən nə Allaha, nə də insanlara lazım olmayan bu gərəksiz həyatıma son qoymaq istədim. Son dəfə çıxıb gəzişmək istədim. Təsadüfən vitrində, qəzet köşkündə, şüşənin arxasın-

da bir nəfərin rəsmini gördüm. Yerimdəcə quruyub qaldım. Gözümü Onun üzündən çəkə bilmirdim. Mənə elə gəlirdi ki, bu adam mənimlə danışır və məni yanına çağırır".

O özü ilə qəzet gətirmişdi. Ev sahibəsi qəzetdə Həzrət Əbdül-Bəhanın fotoşəklini gördü.

Qonaq sözünə davam etdi: "Mən qəzetdə oxudum ki, O, burada, bu evdə yaşayır. Öz-özümə dedim ki, əgər belə bir adam, həqiqətən də, yer üzündə yaşayırsa, mən mütləq dəyişməliyəm və həyatımı yenidən başlamalıyam. Onu tapmaq üçün piyada buraya yollandım. Deyin, O burdadır? O, Məni qəbul edəcəkmi? Hətta mənim kimi birisini?"

– Şübhəsiz O, sizi qəbul edəcək, - ev sahibəsi cavab verdi. - Onun yanına gedək". Qadın qapını döyəndə, qapını Həzrət Əbdül-Bəha Özü açdı və qonaqla çoxdan gözlədiyi dostu kimi salamlaşdı.

"Buyur, buyur keç! Çox şadam ki, sən gəldin. Əyləş!"

Bu zavallı Həzrət Əbdül-Bəhanın ayaqlarının yanındakı alçaq kürsüdə oturdu. O, elə titrəyirdi ki, bir kəlmə söz deməyə belə taqəti yox idi.

"Şad ol, Şad ol" – deyə Həzrət Əbdül-Bəha onun əllərindən tutaraq, yana əyilmiş başını mehribanlıqla sığalladı. Ecazkar təbəssümü, məhəbbət və şəfqət dolu baxışları ilə təsəlli verərək dedi: "Siz alçaldılanda, qəm-qüssə sizi bürüməsin. Bu dünyada hər kəs üçün Allahın Qüdrəti və Mərhəməti sonsuzdur. Ruhani sevinc və bilik axtarın. O vaxt siz yer üzündə yaşasanız da, ruhani aləmdə olacaqsınız. İndi kasıb olsanız da, səma Səltənətində varlı olacaqsınız".

Qonağın kədəri sanki Həzrət Əbdül-Bəhanın qayğı və məhəbbətinin istisində yavaş-yavaş əriyirdi, Onun sözləri, təsəllisi sanki xəstəyə şəfa verirdi.

Qonaq getməyə hazırlaşanda onun üzündə, baxışlarında elə bil təzə nə isə yaranmışdı. O, çiyinlərini düzəltdi, sanki, qarşısına bir məqsəd qoymuş kimi, əzmlə ayağa qalxdı və ev sahibəsinə tərəf dönüb dedi: "Zəhmət olmasa, Həzrət Əbdül-Bəhanın dediklərini mənim üçün yazın. Mən gözlədiyim hər şeyi əldə etdim, hətta ondan da çox".

Sahibə ondan soruşdu: "Siz indi nə etmək fikrindəsiniz?"

"Mən torpaqda işləmək istəyirəm. Ən zəruri olan şeyləri almaq üçün pul qazanacağam. Əgər bir qədər pul artıra bilsəm, bir parça torpaq alacağam. Sonra orada özümə bir koma tikib, həyətində bənövşə əkib-becərəcəyəm. Sonra bu bənövşələri bazarda satacağam. Həzrət Əbdül-Bəha dediyi kimi kasıblıq önəmli deyil, zəhmət isə şərəflidir. Mən sizə təşəkkür etməliyəm, düzdürmü? Əlvida". Qonaq bunu deyib, çıxıb getdi.

***

Həzrət Əbdül-Bəha gözləmirdi ki, insanlar Onun yanına gəlsinlər. Əgər onlar Onu görmək istəyirdilərsə, çox vaxt O Özü onların yanına gedirdi.

Həzrət Əbdül-Bəha Parisdə yaşadığı zaman, Yaponiyanın İspaniyadakı səfiri və onun xanımı Onu çox görmək istəyirdilər. Ancaq səfirin xanımı özünü bir qədər pis hiss edirdi.

"Çox təəssüf ki, bərk soyuqladığımdan, bu axşam evdən çıxa bilməyəcəyəm, sabah tezdən isə İspaniyaya getməliyik. Bircə Onu görə bilsəydim!"

Səfirin xanımının sözləri Həzrət Əbdül-Bəhaya çatdı. Ağır iş günündən sonra evə təzəcə qayıtdığı-

na və axşamdan xeyli keçdiyinə baxmayaraq, Həzrət Əbdül-Bəha dedi: "Səfirə və xanımına deyin ki, əgər onlar mənim yanıma gələ bilmirlərsə, mən onların yanına gedərəm".

Həzrət Əbdül-Bəha həmişəki dəyişməyən təbəssümü ilə soyuğa, yağışa məhəl qoymadan, səfirin yaşadığı mehmanxanaya yollandı.

Onlar Yaponiyalı səfiri və xanımını maraqlandıran mövzulardan xeyli söhbət etdilər. Həzrət Əbdül-Bəha Yaponiyanın beynəlxalq əhəmiyyətinin böyüklüyündən, onların ölkəsinin həyat tərzindən, müharibələrə son qoymağın vacibliyindən və bəşəriyyətə xidmətdən danışdı. O, fəhlələrin həyat şəraitini yaxşılaşdırmağın vacibliyini qeyd etdi, oğlanlar və qızların bərabər səviyyədə təhsil almalarından danışdı, bəşəriyyətin tərəqqi etməsi üçün iki qanadın – elm və din – olmasından söhbət etdi. Sonra Həzrət Əbdül-Bəha bildirdi ki, kainatda insanın hələ aşkar edə bilmədiyi əzəmətli bir qüvvə var. Biz Allaha dua etməliyik ki, insanlar ruhən kamil olmadan, o qüvvə açılmasın. Bu qüvvə ruhən səviyyəsiz insanların əlinə düşərsə, o, dünyanı məhv edər.

Həzrət Əbdül-Bəha bütün bu və digər həllini tələb edən mühüm məsələlərdən danışır, ona qulaq asanlar isə fikirləşirdilər: "Öz ömrünün böyük bir hissəsini zindanda keçirən bu şəxs necə olur ki, dünya səviyyəli məsələlərin həllindən belə yaxşı baş çıxarır. Bu hikmət Onda hardandır?

Amerika Universitetinin məşhur professoru bir dəfə ucadan demişdi: "Mən əminəm ki, Həzrət Əbdül-Bəha Şərqlə Qərbi birləşdirəcək. O yer üzündə addımlayaraq mistik bir yol salır".

Başqa bir görkəmli şəxs Həzrət Əbdül-Bəha haqqında belə fikir söyləmişdi. "Hesab edirəm ki, mənim tanıdıqlarım içərisində ən Mükəmməl şəxs Həzrət Əbdül-Bəhadır".

***

Həzrət Əbdül-Bəha böyük enerjiyə malik idi. Bu enerji elə böyük idi ki, sanki fiziki olaraq hiss oluna bilərdi. Məsələn, söhbət zamanı Həzrət Əbdül-Bəha ilə yanaşı əyləşmiş bir adam haqqında belə bir hadisə danışırdılar: bir saat davam edən söhbət zamanı və suallara cavab verərkən Həzrət Əbdül-Bəha bu adamın əlindən tutmuş və əlini onun dizinin üstünə qoymuşdu.

Sonralar bu kişi danışırdı ki, bütün bu vaxt ərzində ona Həzrət Əbdül-Bəhadan arasıkəsilmədən enerji ötürülürdü. O, keçirdiyi hissi təsvir edə bilmirdi. Ancaq hər dəfə bunu xatırlayanda, Həzrət Əbdül-Bəhanın bu sözləri haqqında fikirləşirdi: "Allahın Əmrində insanların və mələklərin başa düşə bilmədiyi bir qüvvə var".

Başqa bir şəxs də Həzrət Əbdül-Bəhada olan enerji haqqında belə deyir ki, bir dəfə avtomobillə yol gedərkən Həzrət Əbdül-Bəha ilə yanaşı əyləşibmiş və bu zaman hiss edib ki, sanki İlahi mənbədən enerji alır.

Həzrət Əbdül-Bəhanı görənlər başa düşürdülər ki, O, kamilliyin mücəssəməsidir və özlərini kamilləşdirmək üçün Ondan enerji alırdılar.

***

Həzrət Əbdül-Bəha Qərbdə səyahət edərkən bir çoxları Onun fotoşəklini çəkməyə çalışırdılar. Əllərində fotoaparat olan adamlar Onun qapısının ağzına yığışır, şəklini çəkməyə imkan axtarırdılar. Bir dəfə Onun qaldığı evin sahibəsi fotomüxbirlərdən birinə dedi: "Sizcə xarici qonağın razılığı olmadan, onun şəklini çəkmək nəzakətli hərəkətdirmi?"

"Yox, xanım," – fotoqraf cavab verdi, – "lakin başqaları şəkil çəksə və mən çəkməsəm, şefim fikirləşər ki, mən heç nəyə yaramıram".

Ev sahibəsi bunu Həzrət Əbdül-Bəhaya danışanda, O, ürəkdən gülüb dedi: "Əgər şəkil çəkmək istəyirlərsə, qoy yaxşı çəksinlər. Qəzetdəki şəkillər sadəcə olaraq dəhşətlidir".

Bundan sonra dostlarının ürəyini sevindirərək, şəklinin çəkilməsinə razı oldu. O dedi: "Kiminsə şəklini çəkmək hələ hər şey deyil. Şəkil xarici görünüşdür, çıraqdır. Əsas Onun içərisində yanan işıqdır. Bu işığı şəkildə görə bilməzsiniz".

***

Həzrət Əbdül-Bəha heç vaxt Özünə şöhrət və təmtəraq axtarmırdı. Bir gün Xanım Florian Kinq Ona dedi:

"Cənab, Sizsiz cənnət mənim gözümdə qaranlıq görünərdi. Siz mənim üçün Öz varlığınızda Həzrət Bəhaullahı da, Həzrət Məhəmmədi də, Həzrət İsanı da, Həzrət Musanı da, Həzrət Buddanı da təcəssüm etdirirsiniz".

Həzrət Əbdül-Bəha əlini o qadına tərəf uzadıb dedi: “Yaxın gəl, əlimdən tut”. Onun üzü nurlandı. Onun Özü elə Nur idi.

“Cənab,” – Xanım Kinq ucadan dedi, – “Olarmı mən Sizin əlinizdən öpüm?”

“Yox, qızım,” – Həzrət Əbdül-Bəha gülümsədi, – “bu yolverilməzdir. Şəxsiyyətə sitayiş etmək olmaz. Əsas işığın özüdür, o işığın saçdığı lampa deyil”.

Bu kitaba daxil edilən hekayələr Həzrət Əbdül-Bəha haqqında yazılmış çoxlu xatirələr və söhbətlərdən kiçik bir topludur. Hekayələr aşağıdakı kitablardan götürülmüşdür:

Abdu`l-Baha by H.M. Balyuzi (George Ronald, London:1971)

Abdu`l-Baha`s First Days in America by Juiet Thompson (Roycrofters, Aurora, N.Y./:not dated)

Abdu`l-Baha in London (Unity Press, East Sheen, Surrey:1912).

An Early Pilgrimage by May Maxwell (George Ronald, London:1969)

Portals to Freedom by Howard Colby Ives (George Ronald, Oxford:1976)

Star of the West (Chicago:1910-1935)

The Chosen Highway by Lady Blomfield (Baha`i Publishing Trust, Wilmette, III.:1967)

The Oriental Rose by Mary Hanford (Broadway Publishing Company, New York: 1910)

The World of Abdu`l-Baha by Mary Hanford Ford (Reality Publishing Corporation, New York: 1921).

"Elm və təhsil" nəşriyyatının direktoru:
*professor* **Nadir Məmmədli**

Çapa imzalanmış: 07.07.2021
Şərti çap vərəqi: 5,2
Kağız format: 70/100 1x32